Bu proqram Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

UNFPA

UN WOMEN

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

**TOGETHER AGAINST GENDER STEREOTYPES AND GENDER-BASED VIOLENCE**

#eu4genderequality

# AZƏRBAYCANDA COVID-19 PANDEMİYASININ QADIN VƏ KİŞİLƏRİN HƏYATINA TƏSİRİNİN SÜRƏTLİ GENDER QİYMƏTLƏNDİRMƏSİ

BAKI-2020

**Müəllif:**

**Ayşəm Balayeva**
**İctimai rəyin öyrənilməsi departamentinin müdiri, Sosial Tədqiqatlar Mərkəzi**

**Töhfə verən müəlliflər:**

**Zaur Əfəndiyev**
**Sosial tədqiqatların metodologiyası üzrə aparıcı məsləhətçi, Sosial Tədqiqatlar Mərkəzi**

**İnqilab Şahbazov**
**Məlumatların toplanılması və təhlili üzrə baş məsləhətçi, Sosial Tədqiqatlar Mərkəzi**

**Layihənin məsləhətçiləri:**

**Ala Negruta**
**Statistika üzrə mütəxəssis, BMT-nin Qadınlar üzrə agentliyinin Avropa və Mərkəzi Asiya üzrə Regional Ofisi**

**Adnan Ali**
**Statistika üzrə məsləhətçi, BMT-nin Qadınlar üzrə agentliyinin Avropa və Mərkəzi Asiya üzrə Regional Ofisi**

**Bəhicə Əliyeva**
**Gender məsələləri üzrə Proqram müşaviri, BMT-nin Əhali Fondunun Azərbaycan Nümayəndəliyi**

**Xalisə Şahverdiyeva**
**Layihə əlaqələndiricisi, BMT-nin Əhali Fondunun Azərbaycan Nümayəndəliyi**

Cari hesabatda COVID-19 pandemiyasının Azərbaycanda qadın və kişilərin sosial-iqtisadi təminatı və gəlir mənbələrinə təsirinə dair keçirilmiş sürətli gender qiymətləndirilməsinin nəticələri təqdim edilir.

Bu tədqiqat Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və BMT-nin Qadınlar üzrə Agentliyi və BMT-nin Əhali Fondu tərəfindən birlikdə həyata keçirilən "Avropa İttifaqı Gender Bərabərliyi naminə: Gender stereotiplərinə və gender əsaslı zorakılığa qarşı" proqramı çərçivəsində yerli tədqiqat təşkilatı olan “Sosial Tədqiqatlar Mərkəzi”nin dəstəyi ilə həyata keçirilib.

Hesabatda əks olunan fikir və mülahizələr müəlliflərə aiddir və Avropa İttifaqının, BMT-nin Əhali Fondunun və ya BMT-nin Qadınlar üzrə Agentliyinin rəsmi mövqeyini əks etdirməyə bilər.

**@ BMTƏF və BMT Qadınlar**

Hesabata istinad aşağıdakı qaydada olmalıdır: BMTƏF/BMT Qadınlar (2020) COVID-19-un Azərbaycanda qadın və kişilərin həyatına təsirinin Sürətli Gender Qiymətləndirməsi. Bakı, Azərbaycan.

# MÜNDƏRİCAT


İxtisarlar 7

Xülasə 8

Giriş 13

Tədqiqat Metodologiyası 15

Respondentlərin Demoqrafik Xüsusiyyətləri 17

Sürətli Gender Qiymətləndirməsi: ƏSAS NƏTİCƏLƏR 19

COVID-19-la ƏLAQƏDAR MƏLUMATLARIN ƏLDƏ EDİLMƏSİ ÜÇÜN ƏSAS MƏNBƏLƏR 19

PANDEMİYANIN QADIN VƏ KİŞİLƏRİN MƏŞĞULLUQ VƏ DOLANIŞIQ MƏNBƏLƏRİNƏ TƏSİRİ 21

EV İŞLƏRİNİN BÖLGÜSÜ 33

ƏSAS XİDMƏTLƏRƏ ÇIXIŞ 37

AYRI-SEÇKİLİK VƏ MƏİŞƏT ZORAKILIĞI 42

Nəticə və Tövsiyələr 46

İstifadə Olunmuş Ədəbiyyat 48

Əlavə 1 : Sorğu Vərəqi 49

# DİAQRAMLAR


**Diaqram 1: Seçmənin yaş və cins üzrə bölgüsü** 17

**Diaqram 2: Seçmənin təhsil statusu** 18

**Diaqram 3: Seçmənin iqtisadi bölgələr üzrə bölgüsü** 18

**Diaqram 4: COVID-19 üzrə əsas məlumat mənbələri (risklər, tövsiyə olunan qabaqlayıcı tədbirlər, öhdəsindən gəlmə strategiyaları)** 19

**Diaqram 5: Aldığınız məlumatı necə qiymətləndirərdiz?** 21

**Diaqram 6: COVID-19 pandemiyasından əvvəl adi bir həftədə məşğulluq vəziyyətinizi ən yaxşı necə təsvir edərdiniz?** 22

**Diaqram 7: Pandemiya baş verməzdən əvvəl iş axtaranların nisbətinin cins və yaşayış yerinin növü üzrə bölgüsü** 23

**Diaqram 8: İş axtaran respondentlərin nisbətinin cins və yaş qrupları üzrə bölgüsü** 23

**Diaqram 9: İşin itirilməsi və ödənişli işə sərf olunan saatların azalması** 24

**Diaqram 10: Tipik iş yeri ilə bağlı baş verən dəyişikliklər** 25

**Diaqram 11: COVID-19 yayılandan etibarən, məzuniyyət götürməyə vadar edilmisizmi?** 26

**Diaqram 12: İşəgötürən sizin üçün pensiya/social sığorta haqqları ödəyirmi?** 27

**Diaqram 13: COVID-19 yayılandan etibarən verilən işsizlik müavinətləri** 28

**Diaqram 14: COVID-19-un biznesə təsiri** 29

**Diaqram 15: Bir sıra şəxsi resurs mənbələrindən olan gəlirin azalması** 30

**Diaqram 16: Pandemiyanın davam edəcəyi təqdirdə COVID-19-un gəlirlərə təsirinə dair respondentlərin fikirləri** 32

**Diaqram 17: Ev işlərinə sərf olunan saatların sayının artması** 33

**Diaqram 18: Bir neçə ev işinə daha çox vaxt sərf edən respondentlərin nisbəti** 34

**Diaqram 19: COVID-19 yayılandan etibarən hansı fəaliyyətə daha çox vaxt sərf etmisiz?** 34

**Diaqram 20: Respondentlərin "Mən hər şeyi özüm edirəm, heç kəs mənə ev işləri və ailəyə qayğı məsələlərində kömək edə bilmir" sualına dair fikirləri** 36

**Diaqram 21: Ev işlərini heç kimin dəstəyi olmadan idarə edən respondentlərin nikah statusu üzrə bölgüsü** 36

**Diaqram 22: Ev işlərini heç kimin dəstəyi olmadan idarə edən respondentlərin yaş üzrə bölgüsü** 37

**Diaqram 23: Fərdi tibbi müdafiə vasitələrinə çıxış** 38

**Diaqram 24: Əqli sağlamlığa təsiri** 39

**Diaqram 25: Tibbi sığorta ilə əhatə olunma** 39

**Diaqram 26: Tibbi xidmətlərə çıxış prosesində qarşıya çıxan çətinliklər** 40

**Diaqram 27: Cinsi və reproduktiv sağlamlıq xidmətləri və kontraseptivlərə çıxışla bağlı çətinliklər** 40

**Diaqram 28: Respondentlərin ayrı-seçkiliyin hər hansı bir formasının artması ilə bağlı fikirləri** 42

**Diaqram 29: Məişət zorakılığı baş verdikdə hara müraciət edəcəklərini bilməyən qadın və kişilərin nisbəti, yaş qrupu üzrə** 45

# CƏDVƏLLƏR

**Cədvəl 1: Əsas məlumat mənbələrindən istifadənin cins, yaş və yaşayış yeri üzrə bölgüsü** 20

**Cədvəl 2: İşin itirilməsi və ödənişli işə sərf olunan saatların azalması, cins və yaş qrupları üzrə** 24

**Cədvəl 3: Ödənişli işə sərf olunan saatların sayında baş verən dəyişikliklər, cins və yaşayış yerinin növü üzrə** 25

**Cədvəl 4: Tipik iş yeri ilə bağlı baş verən dəyişikliklər,cins və yaş qrupları üzrə** 26

**Cədvəl 5: Biznesi olan respondentlərin nisbətinin cins və yaşayış yerinin növü üzrə bölgüsü** 28

**Cədvəl 6: Hökumətdən natura formasında (ərzaq, vasitələr və s.) alınan dəstək** 30

**Cədvəl 7: QHT-lər və digər qeyri-kommersiya təşkilatlarından natura formasında (ərzaq, vasitələr və s.) alınan dəstək** 31

**Cədvəl 8: Pandemiyanın davam edəcəyi təqdirdə COVID-19-un gəlirlərə təsirinə dair respondentlərin fikirləri, cins və yaş qrupları üzrə** 32

**Cədvəl 9: Pandemiyanın davam edəcəyi təqdirdə qadın və kişilərin gələcək maliyyə durumuna dair fikirləri, cins və yaş qrupları üzrə** 32

**Cədvəl 10: COVID-19-un yayılması nəticəsində aşağıdakı işlərə sərf edilən saatların sayında dəyişiklik baş veribmi?** 35

**Cədvəl 11: Respondentlərin ayrı-seçkiliyin hər hansı bir formasının artması ilə bağlı fikirləri, cins və yaşayış yerinin növü üzrə bölgü** 43

**Cədvəl 12: COVID-19 yayılandan etibarən məişət zorakılığı hallarının artmasını hiss etmisinizmi/eşitmisinizmi?** 44

# İXTİSARLAR

| | |
|---|---|
| BMTƏF | BMT-nin Əhali Fondu |
| BMT Qadın | BMT-nin Gender Bərabərliyi və Qadınların səlahiyyətləndirilməsi üzrə Agentliyi |
| COVID-19 | Coronavirus 2019 |
| CRS | Cinsi və reproduktiv sağlamlıq |
| DİM | Dayanıqlı İnkişaf Məqsədləri |
| DSK | Dövlət Statistika Komitəsi |
| ET | Ev Təsərrüfatı |
| QQZBFLK | Qadınlara Qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi Haqqında Konvensiya |
| GƏZ | Gender əsaslı zorakılıq |
| İKT | İnformasiya və kommunikasiya texnologiyaları |
| MZ | Məişət zorakılığı |
| QHT | Qeyri-hökumət təşkilatı |
| SPSS | Sosial elmlər üzrə statistik proqram paketi |
| SGQ | Sürətli gender qiymətləndirməsi |
| ÜST | Ümumdünya Səhiyyə Təşkilatı |
| VCT | Vətəndaş cəmiyyəti təşkilatı |

# XÜLASƏ

**Son dövrdə baş vermiş COVID-19 pandemiyası və onun səbəb olduğu yoluxmalar və ölüm hallarının artması Azərbaycan hökumətini ölkədə mövcud olan tibbi, iqtisadi və sosial sistemlər üçün əlavə yükün yaranmasına səbəb olan bir sıra məhdudlaşdırıcı tədbirləri tətbiq etməyə vadar etdi.**

BMT-nin Əhali Fondu Azərbaycanda pandemiyanın qadın və kişilərin həyatına olan təsirinin müxtəlif aspektlərini anlamaq üçün sürətli qiymətləndirmə təşəbbüsü ilə çıxış etdi. Sözügedən sorğu BMT-nin Əhali Fondunun və BMT-nin Qadınlar üzrə Agentliyinin bölgədə gender stereotipləri ilə mübarizə üzrə həyata keçirdiyi birgə layihə çərçivəsində yerli təşkilat olan Sosial Tədqiqatlar Mərkəzinin dəstəyi ilə həyata keçirildi. Sorğu ümumilikdə 1,512 nəfəri əhatə etdi və sorğuda iştirak etmiş qadın (48.6 %) və kişilərin (51.4 %) sayı demək olar ki, bərabər idi.

Qiymətləndirmənin nəticələri göstərir ki, COVID-19 Azərbaycanda qadın və kişilərin sosial-iqtisadi təminatları və gəlir mənbələrinə əhəmiyyətli şəkildə təsir edib və bunu nəzərə alaraq, hökumət pandemiyanın mənfi nəticələrinin aradan qaldırılması üzrə tətbiq edilən cavab və bərpa tədbirlərinin gender cəhətdən həssaslığına xüsusi diqqət yetirməlidir.

**Əsas nəticələr: Qadınlar və kişilər aidiyyəti məlumatları əsasən ənənəvi mənbələrdən əldə etmiş, internet və sosial mediadan istifadə daha az olmuşdur.**

**Əhali COVID-19-la bağlı məlumat əldə etmək üçün əsasən televiziya, radio və qəzetlər daxil olmaqla ənənəvi mənbələrdən istifadə etmişdir və bu nəticələrin cins üzrə bölgüsünə əsasən nəzərəçarpan gender fərqləri müşahidə edilməyib.**

Televiziya, radio və qəzetlərdən istifadə baxımından qadınlar kişilərdən bir qədər çox olsa da (67.7% qadın və 63.3% kişi), internet və sosial mediadan alınan məlumat baxımından kişilər 5% fərqlə üstünlük təşkil edir (27.2% və 22.4%). Yaş artdıqca hər iki cins üzrə internet və sosial şəbəkələrdən istifadə edənlərin sayında azalma müşahidə edilir.

**Qadınlar və kişilər COVID-19 haqqında qənaətbəxş şəkildə məlumatlı olduğunu hiss etdiyini bildirmişdir.**

Respondentlər televiziyadan aldıqları məlumatları internet və sosial mtediadan aldıqları məlumatlarla müqayisədə daha faydalı hesab edirlər (93.3% və 86.4%).

**COVID-19-un qadınlar və kişilərin məşğulluğu və dolanışıq mənbələrinə əhəmiyyətli təsiri olmuşdur.**

**Kişilər əsasən işlərini itirdiyi halda, qadınlar daha çox ödənişli iş saatlarının azalmasının mənfi təsirinə məruz qalmışdır.**

Demək olar ki, işinin itirilməsi baxımından kişilər əksər yaş qrupları üzrə çoxluq təşkil edib və gənc kişilər əsas təsirə məruz qalanlar sırasında olmuşdur (18-34 yaş qrupu üzrə 37.5%). İşini itirmiş 18% respondent arasında kişilərin sayı qadınlardan üç dəfə artıq olub (23.8% və 8.3%). Qadın və kişilərin əhəmiyyətli bir qismi ödənişli işə sərf edilən saatların azalmasına dair məlumat vermişdir və qadınlar bu  baxımdan 13% fərqlə mənfi təsirə daha çox məruz qaldıqlarına dair məlumat  vermişdir. Kəndlərdə yaşayan qadınların 42.6%-i və kişilərin 34.2%-nin iş saatları azaldığı halda, şəhər (qadınların 50.8%-i və kişilərin 37.4%-i) və qəsəbələrdə (qadınların 51.4%-i və kişilərin 26.7%-i) bu göstəricilər daha çox olmuşdur.

**Qadınların böyük əksəriyyəti pandemiya zamanı evdən işləməyə məcbur olmuşdur.**

COVID-19-un yayılmasının qarşısını almaq məqsədilə bəzi iş yerləri müvəqqəti olaraq fəaliyyətini dayandırsa da, işçi heyət müxtəlif kommunikasiya texnologiyalarından istifadə etməklə işini davam etdirmişdir.

Kişilərin böyük əksəriyyəti (57.3%) evdən kənarda işini davam etdirdiyi halda, qadınlar pandemiya başlayandan etibarən əsasən evdən işləməyə məcbur olmuş əhali qrupları arasında çoxluq təşkil etmişdir. Ödənişli məzuniyyətə çıxanlar arasında qadınlar üstünlük təşkil edir (42.6% və 16.9%). Lakin ödənişsiz məzuniyyətə göndərilənlər (4.3%) içərisində də qadınların nisbəti daha çoxdur (50.3% qadın, 23.1% kişi). Bu nəticələr qadınların əsasən pandemiya ilə bağlı tətbiq edilən məhdudlaşdırıcı tədbirlər nəticəsində bağlanmış təhsil və xidmət təchizatı kimi sektorlarda çalışmaqları ilə izah edilə bilər.

**Qadın və kişilərin 10%-nin işəgötürən tərəfindən pensiya ödənişləri edilmir**

Güman etmək mümkündür ki, tənzimlənmiş pensiya mexanizmlərindən kənarda qalmış bu qadın və kişilər əsasən qeyri-formal sektorlarda çalışdıqları üçün, pandemaiya nəticəsində azalmış gəlir və əsas xidmətlərə çıxış baxımından daha əlverişsiz şəraitdə olan şəxslərdir. Qeyri-formal məşğulluq baxımından qadınlar cüzi bir fərqlə çoxluq təşkil edir.

**Gəlirlərini əsasən öz biznesindən əldə edən kişilərə COVİD-19 mənfi təsir göstərmişdir. Biznesi olan qadınların sayının çox kiçik olmasına baxmayaraq, onlar kişilərlə mqayisədə COVİD-19-un mənfi təsirinə daha çox məruz qalmışdır.**

Kişilər biznes sahibi olanların böyük əksəriyyətini təşkil etmişdir. Kişilərin 14.8%-i, qadınların isə yalnız 2.6%-i hər hansı bir biznes fəaliyyəti ilə məşğul idi. Kişi respondentlər həmçinin öz biznes təşəbbüsünün rəsmi qeydiyyatı baxımından da daha yaxşı nəticələr nümayiş etdirir (52.6% və 26.7%). Pandemiyanın istər qadın, istərsə də kişilərin sahib olduğu bizneslərə mənfi təsirinin olmasına baxmayaraq, biznes fəaliyyətinin həcminin azalması baxımından kişilər, biznesin tamamilə dayanması baxımından isə qadınlar 60%-lə üstünlük təşkil etmişdir.

**Əhalinin müxtəlif mənbələrdən əldə etdiyi gəlirlərin itirilməsi baxımından ciddi gender fərqləri müşahidə olunub. Belə ki, qadınlar əsasən pul köçürmələrinin azalması, kişilər isə ödənişli iş və təsərrüfatdan əldə olunan gəlirin azalmasının təsirinə məruz qalıb.**

COVİD-19 virusunun yayılması öz/ailə biznesi (82.2%), fermer təsərrüfatı (47.2%), pul köçürmələri (36.3%) və ödənişli işdən (30.7%) əldə olunan gəlirlərə xüsusilə mənfi təsir etmişdir. Bu nəticələrin cins üzrə bölgüsünə görə kişilər əsasən ödənişli iş (11% fərqlə) və fermer təsərrüfatından (18% fərqlə) əldə edilən gəlir, qadınlar isə pul köçürmələrinin (9.8% fərqlə) azalması baxımından daha çox mənfi təsirə məruz qalıb.

**COVID-19-un mənfi nəticələrinin azaldılması məqsədilə hökumət və ya QHT-lərdən natura formasında dəstək alan qadın və kişilərin sayı olduqca azdır.**

Hökumətdən natura formasında yardım alanların ümumi göstəricisi cəmi 6.7% təşkil edib (5.2%-i ərzaq, 1.2%-i profilaktik vasitələr, 0.7%-i şəxsi gigiyena vasitələri). Qeyri-hökumət təşkilatlarından yardım alanların göstərici isə daha azdır - 1.4%. Hər iki mənbədən əldə edilmiş dəstək əsasən ərzaq formasında olmuşdur. Müəyyən edilmiş bu göstəricilərdə gender fərqləri əhəmiyyətsiz olsa da, dəstək almış kişilərin sayı qadınlara nisbətən daha çox olmuşdur.

**Kirayə və əsas xərcləri ödəmək iqtidarında olmayacağına dair məlumat vermiş qadın və kişilərin nisbəti demək olar ki, bərabər olmuşdur.**

Seçmədə olan respondentlərin böyük əksəriyyəti pandemiyanın davam edəcəyi təqdirdə baş verəcək maliyyə çətinliklərinin ərzaq və şəxsi gigiyena vasitələrinin əldə edilməsi (qadınların 69%-i və kişilərin 67-i), habelə kirayə və kommunal ödənişlərin edilməsinə (qadınların 65.1%-i və kişilərin 64.9%-i) mənfi təsir edə biləcəyini düşünür.

## Ev işlərinin qeyri-bərabər bölgüsünün əsas yükü qadınların üzərindədir.

**COVİD-19 pandemiyası nəticəsində qadınların üzərində olan qeyri-bərabər ev yükü əhəmiyyətli şəkildə artıb.**

Hər hansı bir ev işinə daha çox vaxt sərf edən qadın respondentlərin sayı kişilərlə müqayisədə daha çoxdur (62.9% və 55.8%). Evdən işləməyə vadar edilmiş qadınların böyük əksəriyyəti (86.4%) həmçinin bütün ev işlərinin yükünün artdığını hiss etdiyinə dair məlumat vermişdir.

**Ödənişsiz ev işlərinin sayı artdıqca gender fərqləri daha nəzərəçarpan olur.**

Hər iki qadından biri ən azı bir ev işi üzrə yükünün artmasına dair məlumat verib, eyni məlumatı kişilərin hər üçündən biri verib. İki və daha artıq ev işinin görülməsinə dair məlumatın təhlili göstərir ki, ev işləri artdıqca, kişilərin icra etdiyi işlərin sayında azalma müşahidə olunur. Belə ki, ən azı üç ev işinin görülməsi ilə bağlı məlumat verən qadın və kişilərin nisbəti müvafiq olaraq 9% və 5% təşkil edir.

**Ən çox vaxt sərfiyyatı tələb edən ev işlərinin görülməsi baxımından qadın və kişilərin müvafiq nisbətləri arasında ciddi fərqlər müşahidə olunur.**

Kişi respondentlərin uşaqlarla oynamaq (40.7%), ev üçün bazarlıq (16.2%) və ev işlərinin idarə olunması (24.7%) ilə bağlı gördükləri işə sərf olunan vaxtda artım olduğuna baxmayaraq, yeməkləri hazırlamaq (29.9%), təmizlik işləri görmək (33.9%) və uşaqlara qayğı (44.8%) kimi əksər ev işlərinin yükü hələ də qadınların üzərindədir.

**Qadınlar ev təsərrüfatının idarə edilməsini tək olaraq, ailə üzvlərinin dəstəyi olmadan icra edən şəxslər arasında çoxluq təşkil edir.**

Respondentlərin 37.5%-i ev təsərrüfatının idarə edilməsini digər ailə üzvlərinin dəstəyi olmadan icra edirlər. Kişi respondentlərin 81%-nin və qadın respondnetlərin 51.3%-nin həyat yoldaşlarının onlara ev işlərinin görülməsində kömək etməsinə dair məlumat verməsinə baxmayaraq, qadınlar ev təsərrüfatını təkbaşına idarə edən şəxslər arasında çoxluq təşkil edir (qadınların 44.1%- i və kişilərin 30.5%-i). Ehtimal edildiyi kimi, subay və dul kişilər ev təsərrüfatını təkbaşına idarə etdiyi halda, evli kişilər ev işləri üzrə öhdəliklərin ənənəvi gender bölgüsünə əsasən bu sahədə demək olar ki, çox az şəkildə iştirak edir. Maraqlıdır ki, ev təsərrüfatını təkbaşına idarə edən qadınlar bütün yaş qrupları üzrə çoxluq təşkil edir, eyni zamanda, bir sıra yaş qrupları üzrə bu baxımdan xüsusilə ciddi gender fərqləri müşahidə olunur: 35-44 yaş qrupunda 55% və 32%; 45-54 yaş qrupunda 55% və 30.6% və 55+ yaş qrupunda 44.9% və 36.5%.

**Qadınlar müəyyən dərəcədə yaxın ailə üzvlərinin, xüsusilə də oğullarının köməyindən faydalana bilib.**

Bütün respondentlərin 41%-i digər ailə üzvlərinin onlara ev işləri və/və ya ailəyə qayğı ilə bağlı kömək etdiyinə dair məlumat verib və bu baxımdan ciddi gender fərqləri müşahidə edilməyib (qadınların 39.4%-i və kişilərin 42.4%-i). Bununla yanaşı, oğullarının ev işlərində onlara daha çox kömək etdiyini bildirən qadın və kişilərin nisbəti (qadınların 27.3%-i və kişilərin 24.1%-i) qızlarının köməyindən faydalanan respondentlərin sayından daha çox olmuşdur (qadınların 19.4%-i və kişilərin 19.6%-i).

## Pandemiyanın əsas tibbi xidmətlərə çıxışa təsiri baxımından qadın və kişilərin təcrübələrində müəyyən fərqlər müşahidə olunub.

**Kişilər qadınlarla müqayisədə fərdi tibbi müdafiə vasitələrinə çıxış baxımından daha çox çətinliklə üzləşib.**

Respondentlərin cəmi 13.8%-i bu vasitələrə ehtiyacı olmadığını qeyd etdiyi halda, qadın və kişilərin yarısından çoxu bu vasitələri əldə etmək üçün heç bir maneələrlə üzləşməmiş, eyni zamanda, qadın və kişilərin üçdə biri bu baxımdan müəyyən maneələrlə qarşılaşdıqlarını bildirmişdir. Fərdi tibbi müdafiə vasitələrinə ehtiyacı olmadığını qeyd etmiş respondentlərə dair əldə edilmiş məlumatın əlavə təhlili göstərir ki, bu şəxslər arasında yaşı 55-dən yuxarı olanlar çoxluq təşkil edir (qadınların 39.4%-i və kişilərin 37%-i).

**Qadınlar pandemiyanın əqli və emosional sağlamlığa mənfi təsiri baxımından daha çox zərərçəkmişlər sırasındadır.**

Pandemiyanın əqli və emosional sağlamlığa mənfi təsirinə məruz qaldığına dair məlumat vermiş 32.3% respondent arasında qadınlar çoxluq təşkil edir (kişilərin 26.9%-i və 37.5%-i). Əldə edilmiş məlumatların cins və yaş üzrə bölgüsü qadınların bütün yaş qrupları üzrə əsas təsirə məruz qaldığını nümayiş etdirir.

**Pandemiya nəticəsində qadınların səhiyyə xidmətlərinə çıxışı risk altında ola bilər.**

Qadınlar pandemiya zamanı tibbi xidmətlərə ehtiyacı olmadığını deyən əhalinin əksəriyyətini təşkil edib (62.4% və 47.8%). Güman etmək olar ki, bu vəziyyət ölkədə icbari sığorta sisteminin hələ də tam şəkildə tətbiq edilməməsi və qadınların daha məhdud maliyyə resurslarına sahib olmasının nəticəsidir, çünki əhali tibbi xidmətlərə müraciət edərkən ortaya çıxan xərcləri əsasən özləri ödəməlidir. Tibbi sığorta ilə əhatə olunmuşların nisbəti çox azdır. Qadın və kişilərin 22%-nin tibbi sığorta ilə əhatə olunmasına baxmayaraq, bir çox insan (kişilərin 72.2%-i və qadınların 69%-i) hələ də müvafiq şəkildə sığortalanmayıb. COVID-19 pandemiyasının kişi və qadınların iqtisadi resursları və gəlirlərinə mənfi təsiri nəticəsində bu insanların aidiyyəti maliyyə xərclərinə görə tibbi xidmətlərə müraciət etmək ehtimalının az olduğunu söyləmək mümkündür.

## Cinsi və reproduktiv sağlamlıq və kontraseptivlərə çıxış.

**Qadınların böyük əksəriyyəti ginekoloji və mamalıq xidmətlərinə ehtiyacı olmadığını bildirmişdir.**

Reproduktiv yaşda olan qadınların böyük əksəriyyəti (710 nəfər qadının 91%-i) ginekoloji və mamalıq xidmətlərinə ehtiyacı olmadığını bildirmişdir. Bu nəticələr qadınların tibbi xidmətlərdən istifadəyə dair verdikləri məlumatlara uyğundur. Belə ki, əhali arasında ailə planlaşdırılmasının faydalarına dair olan məlumat çatışmazlığı, habelə pandemiya nəticəsində iqtisadi resurslar və gəlirlərin azaldığına görə qadınlar ortaya çıxacaq xərcləri nəzərə alaraq bu xidmətlərə müraciət etməkdən çəkinirlər. Əldə edilmiş nəticələr göstərir ki, qadınların ancaq 6.8%-i ginekoloji xidmətlərə müraciət etmişdir.

**Kontraseptivlərə ehtiyacı olmadığına dair məlumat vermiş qadınların sayının hədsiz çox olmasına baxmayaraq, bu vasitələrə ehtiyacı olduğunu bildirən qadınlar onlara çıxış baxımından böyük çətinliklərlə üzləşmişdir.**

COVİD-19 yayılandan etibarən qadınların kontraseptivlərdən istifadəsi ilə bağlı da eyni vəziyyət müşahidə olunur.

Reproduktiv yaşda olan qadın respondentlərin təqribən 91%-i kontraseptivlərə ehtiyacı olmadığını bildirmişdir. Lakin, kontraseptivlərə ehtiyacı olanların 6.3%-i bu vasitələrə çıxış baxımından böyük çətinliklərlə üzləşmişdir. Güman etmək olar ki, bu çətinliklər COVID-19 yayılandan etibarən əsas tibbi resurslarının pandemiya ilə mübarizəyə yönəldilməsi nəticəsində baş vermişdir.

## Ayrı-seçkilik və məişət zorakılığı.

**Qadınlar ayrı-seçkiliklə bağlı daha çox müşahidələrini paylaşmışdır.**

Bütün respondentlərin 10.6%-i COVID-19 yayılandan etibarən ayrı-seçkiliyin hər hansı bir formasının artmasına dair məlumat verib və bu məlumatın cins üzrə bölgüsü kiçik gender fərqlərini müəyyən edib (kişilərin 9.4%-i və qadınların 11.7%-i). Əksər yaş qrupları üzrə qadınlar cüzi fərqlə üstünlük təşkil etmişdir. Şəhərlərdən olan qadınlar digər respondentlərlə müqayisədə ayrı-seçkiliyin artmasına dair daha çox məlumat vermişdir (7.3% və 4.4%).

**COVID-19-la əlaqədar tətbiq edilmiş məhdudiyyətlər nəticəsində ev təsərrüfatı gəlirlərinin azalması və pandemiyanın əhalinin psixoloji sağlamlığına mənfi təsirinin ailədaxili gərginlik və zorakılıq hallarına zəmin yaratması ehtimalı yüksəkdir.**

Bütün respondentlərin 9.5%-i (kişilərin 9.4%-i və qadınların 9.7%-i) COVID-19 yayılandan etibarən məişət zorakılığının artdığına dair məlumat eşitdiyini/bunu hiss etdiyini bildirmişdir. Bu məlumatların cins və yaş ürzə bölgüsü ciddi gender fərqləri müəyyən etməmişdir. Məişət zorakılığının artdığını bildirən respondentlərin rəylərinə əsasən zorakılığa məruz qalanların böyük əksəriyyətini qadınlar təşkil edir (83%).

**Qadınların böyük bir qismi məişət zorakılığı baş verdiyi təqdirdə hara müraciət edəcəyi ilə bağlı məlumata malik deyil.**

Məişət zorakılığı ilə bağlı mövcud müdafiə mexanizmlərinə dair məlumatı olmayan qadınlarla kişilərin nisbəti arasında ciddi gender fərqləri müşahidə olunur (qadınların 43.4%-i və kişilərin 33.5%-i). Zorakılıq baş verəcəyi təqdirdə hara müraciət etməklə bağlı verilmiş suala “Bilmirəm” cavabı vermiş qadınların nisbəti daha çox idi.

COVID-19 pandemiyası nəticəsində tətbiq edilmiş məhdudiyyətləri də nəzərə alaraq qadınların mövcud dəstək xidmətləri ilə bağlı məlumatlara malik olmaması ciddi narahatlıq doğuran məsələlərdəndir və bu sahədə təcili müdaxilə tədbirlərinə ehtiyac var.

**65 yaşdan yuxarı olan əhali qrupları 18-64 yaşlı şəxslərlə müqayisədə məişət zorakılığı ilə bağlı müdafiə vasitələri haqqında daha az məlumatlara malikdir.**

65 yaşdan yuxarı insanların bu haqda məlumatlılığının aşağı olması (18-64 yaşında olan 51.7%-lə müqayisədə 41.1%), habelə, onlara qarşı baş verə biləcək zorakılıq halları zamanı müraciət edə biləcəkləri yerlərin olmaması, onların zorakılığa dözməyi ilə nəticələnə bilər. Eyni zamanda 65 yaşdan yuxarı şəxslər əsasən pensiya yaşında olduğu üçün onların sosial fəallığı nisbətən azalır və bu yaş qrupunun internet və digər müasir texnologiya vasitələrindən istifadə bacarıqları da nisbətən zəif olur. Bu, onların məlumat əldə etmək imkanlarını da məhdudlaşdırmış olur.

# GİRİŞ

Son dövrdə baş vermiş və ÜST tərəfindən pandemiya kimi xarakterizə edilmiş COVID-19 və onun səbəb olduğu yoluxmalar və ölüm hallarının artması bir çox ölkələri qismən və ya tam məhdudlaşdırıcı tədbirləri tətbiq etməyə vadar etdi ki, bu da mövcud tibbi, iqtisadi və sosial sistemlər üçün əlavə yükün yaranması ilə nəticələndi. Qlobal səviyyədə əldə edilmiş dəlillərə əsasən COVID-19-un ictimai səhiyyə sahəsində yaratdığı problemlərlə yanaşı, pandemiyanın sosial, siyasi və iqtisadi sistemlərdə olan boşluqları üzə çıxararaq əvvəlcədən mövcud olan bərabərsizlikləri daha də dərinləşdirməsi ehtimalı yüksəkdir. Və bu baxımdan qadınların vəziyyəti xüsusi diqqət tələb edir. Azərbaycanda gender bərabərliyinin təmin edilməsi sahəsində mövcud olan maneələr də daxil olmaqla müxtəlif səviyyələrdə mövcud olan inkişaf problemlərini nəzərə alaraq pandemiyanın ümumilikdə ölkəyə ciddi şəkildə təsir edəcəyini ehtimal etmək mümkündür.

Azərbaycanda COVID-19-a ilk yoluxma halı 28 fevral 2020-ci ildə qeydə alınıb. Rəsmi mənbələrdən əldə edilmiş məlumatlara əsasən 1 iyul tarixinədək ölkədə aparılan testlərin sayı ümumilikdə 488,852 təşkil edib. Yoluxmuş insanların ümumi sayı 18,112, xəstəliyin fəal fazasında olanların sayı isə 7,831 təşkil edib. Sağalmış əhalinin sayı 10,061olub. 220nəfər isə həyatını itirib.[1] Mövcud məlumatların cins əsasında bölgüsü qadınlar arasında yoluxmaların nisbətən daha çox olduğunu nümayiş etdirir (54%). Eyni zamanda, yaş bölgüsünə əsasən 50-59 (21%), 30-39 (18%), və 60-69 (16%) yaş qruplarından olanlar da yoluxma baxımından virusun daha çox mənfi təsirinə məruz qalanlar sırasındadır.[2]

Son bir neçə onillik ərzində Azərbaycanda gender bərabərliyinin təşviqi istiqamətində əhəmiyyətli nailiyyətlər əldə edilib. Bütün kişi və qadınlar arasında hüquq bərabərliyi ölkə Konstitusiyasında birmənalı şəkildə təsbit olunub və qadınların özəl və ictimai həyatda bərabərliyinə dair müvafiq müddəalar bir sıra normativ hüquqi aktlarda əks olunub. Azərbaycanda kişi və qadınların gözlənilən ömür uzunluğu, habelə qadınların savadlılıq səviyyəsi artır, onlar ən azı doqquz illik orta təhsil alır, daha yetkin yaşda ailə qurur, daha az sayda uşaq dünyaya gətirir. Eyni zamanda, qadınlar genişləndirilmiş ailələrdə yaşamaqdan imtina edərək, nüvə ailələrində yaşayışa daha çox meyl edir, həmçinin onlar kənd və ya şəhərdə yaşamaq üçün təxminən eyni  imkanlara malikdir. Azərbaycan qadınlarının böyük bir qismi ev təsərrüfatından kənarda gəlir gətirən fəaliyyət növlərinə də daha çox cəlb olunur.[3]

Bununla yanaşı, gender bərabərsizliyi hələ də ailənin formalaşması və ailədaxili münasibətlər, həmçinin bütövlükdə cəmiyyətə mənfi təsir göstərən amillər sırasındadır. Əslində, qadınların müxtəlif resurslara (iqtisadi, mədəni, məlumat və sosial) çıxışı kişilərlə müqayisədə daha məhduddur. Qadınların şəxsi, ictimai və siyasi həyatda qərar qəbuletmə prosesində hərtərəfli iştirak imkanları da kişilərə nisbətən daha azdır. Ailə öhdəliklərinin qadın və kişilər arasında olan bölgüsünün hər kəs tərəfindən qəbul edilməsi nəticəsində qadınlar hələ də əsasən öz reproduktiv potensialına görə dəyərləndirilir və onların rolu əsasən ailə çərçivəsi ilə məhdudlaşdırılır.[4]

1-Nazirlər Kabinetinin Azərbaycanda COVID-19-a dair məlumatı. Aşağıdakı link üzrə əldə edilə bilər: https://cabmin.gov.az/az/category/10/ (son baxış tarixi - 06.07.2020)
2-Eyni mənbə
3-BMTƏF/BMTİP (2015) Əhalinin vəziyyətinin qiymətləndirilməsi: Azərbaycanda demoqrafik keçiddən sonrakı dövr. Bakı, Azərbaycan
4-BMTƏF/AQUPDK (2018) Azərbaycanda gender bərabırliyi və gender münasibətləri: mövcud vəziyyət və imkanlar. Kişilərin gender bərabərliyininə münasibətinə dair tədqiqatın (IMAGES) nəticələri. Bakı, Azərbaycan

Yuxarıda qeyd olunanları, habelə COVID-19 pandemiyasının xüsusilə qadınlara olan mənfi təsirinə dair olan qlobal dəlillər və məlumatı nəzərə alaraq, BMT-nin Əhali Fondunun Azərbaycan Nümayəndəliyi BMT-nin Qadınlar üzrə Agentliyi ilə birgə pandemiyanın qadın və kişilərə olan təsirini araşdırmaq məqsədilə sürətli qiymətləndirmə keçirmək təşəbbüsü ilə çıxış etdi. Araşdırma yerli təşkilat olan "Sosial Tədqiqatlar Mərkəzi"nin dəstəyi ilə BMT-nin Əhali Fondu və BMT-nin Qadınlar üzrə Agentliyi tərəfindən bölgədə gender stereotipləri ilə mübarizə üzrə birlikdə reallaşdırdığı proqram çərçivəsində həyata keçirilib.

Sözügedən sorğu qadın və kişilərin müxtəlif təcrübələrinə xüsusi diqqət yetirməklə müvəqqəti məhdudlaşdırıcı tədbirlər və xüsusi karantin rejiminin əhalinin iqtisadi təminatı və gəlir mənbələrinə olan təsirini tədqiq etmək məqsədi daşıyır. Araşdırmanın nəticələrinin gender dinamikasını nəzərə almaqla pandemiyanın təsiri baxımından ilkin cavab tədbirlərinin planlaşdırılması prosesində istifadəsi gözlənilir. Eyni zamanda, əldə edilmiş məlumat və dəlillər ölkənin QQABFLK Konvensiyası, Pekin Fəaliyyət Platforması və DİM-lər üzrə öhdəliklərinə müvafiq şəkildə hazırlanacaq gender cəhətdən həssas bərpa səylərinə töhfə vermiş olacaq.

# TƏDQİQAT METODOLOGİYASI

**Tədqiqat ərazisi və seçmənin planlaşdırılması.**

Sorğu Abşeron, Bakı, Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Yuxarı Qarabağ, Aran, Quba-Xaçmaz və Dağlıq Şirvan iqtisadi-coğrafi rayonlarını əhatə etməklə 1512 respondenti əhatə edib. Naxçıvan Muxtar Respublikası və işğal altında olan regionlar sorğuda əhatə olunmayıb

Tədqiqat çərçivəsində respondentlərin seçimində təsadüfi seçmənin çoxpilləli stratifikasiya yanaşmasından istifadə edilib ki, cins və yaş qrupları baxımından reprezentativ seçməni təmin etmək mümkün olsun. Seçmə üçün məlumatlar Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsindən əldə edilib. İlk mərhələdə sorğuda əhatə ediləcək hər iqtisadi rayon üzrə yaşayış məntəqələri müəyyənləşdirilib. Seçmə xətasını azaltmaq və etibarlı məlumatları əldə edə bilmək məqsədilə sorğunun əsasən stasionar telefon xəttləri vasitəsilə həyata keçirilməsinə dair razılaşma əldə olunub. Bu yanaşma vasitəsilə qadınlar, kənd əhalisi və s. mobil telefon qeydiyyatı olmayan şəxslərin də sorğuda bərabər səviyyədə iştirak imkanını təmin etmək mümkün olmuşdur. Növbəti mərhələdə hər yaşayış məntəqəsindən sorğuda iştirak etməli olan respondent sayından 10 dəfə çox sayda təsadüfi qaydada stasionar telefon nömrəsi seçilib. Beləliklə ümumillikdə 15120 nömrə seçilib. Seçilmiş klasterlər üzrə telefon nömrələrinin olduğu baş məcmuda hər üçüncü nömrəyə zəng edilib. İmtina hallarında növbəti üçüncü nömrə ilə əlaqə saxlanılmağa çalışılıb.

Respondentlərin seçimində sosial-demoqrafik göstəricilərə xüsusi diqqət yetirilərək, proporsionallıq təmin edilib. Belə ki, sorğuda hər bir sosial-demoqrafik qrupun (cins və yaş) çəkisi onların ölkə üzrə sayına mütənasib qaydada müəyyənləşdirilib.  Ümumilikdə, rəyi soruşulanların 48.6 %-i kişi, 51.4%-i qadınlardan ibarət olub. Sorğuda əhatə edilmiş respondent sayına əsasən, nəticələrin xəta əmsalı 95% əminlik intervalında 2.5% təşkil edir.

## Sorğu anketinin strukturu

Sorğu anketi BMT-nin Qadınlar üzrə Agentliyi və BMT-nin Əhali Fondunun Regional Ofisləri tərəfindən hazırlanmışdır. Suallar əsasən COVID-19 pandemiyasının respondentlərin maddi rifahı və məşğulluq vəziyyəti, gündəlik həyat tərzi, məişət işlərinin bölgüsü, habelə respondent qadınların cinsi və reproduktiv sağlamlıq xidmətlərinə təhlükəsiz çıxışına təsirinin müəyyən edilməsi məqsədilə tərtib olunmuşdur.

Sorğu anketi ümumilikdə aşağıdakı tematik sahələr üzrə məlumat toplanması üçün bir sıra qapalı suallardan ibarət bir alət kimi tərtib edilmişdir:

• **Demoqrafik məlumatlar**
cins, yaş, nikah statusu, təhsil, və ev təsərrüfatı üzvlərinin sayı və yaşına dair suallar

• **İqtisadi səlahiyyətləndirmə**
i) əsas gəlir mənbələri, ii) iqtisadi status və pandemiyanın iş cədvəli və ödənişli iş saatlarına təsiri, iii) ən azı iki həftə işləməməyin gəlirlərə təsiri (tam və ya qismən məvacib almaq, ümumilikdə məvacib almamaq), və iv) ev təsərrüfatının resursları da daxil olmaqla digər gəlirlər üzrə suallar

• **COVID-19 üzrə məlumat mənbələri:**
müvafiq məlumata çıxış və əldə edilmiş məlumatların keyfiyyətinin qiymətləndirilməsi (məlumatın aydın olması, vaxtında verilməsi, faydalı olması) üzrə olan suallar

• **Əsas xidmətlərə çıxış və təhlükəsizlik:**
bu suallar COVID-19-un aşağıdakı sahələrə olan təsirini müəyyən edir: i) əsas xidmətlərə çıxış (xəstəlik, ev təsərrüfatı üzvünün ölümü, psixoloji sağlamlıq, tibbi xidmətə çıxış, ev təsərrüfatının su resursları, uşaqların məktəbi/təhsili), ii) əsas ehtiyacların təmin edilməsi (qida, qadınlar üçün gigiyenik vasitələr, ictimai nəqliyyat) və iii) sosial müdafiə xidmətlərinə çıxış

**• Ödənilməyən qayğı və ev işləri:** spesifik fəaliyyətlərə sərf edilmiş vaxt bölgüsü və ev təsərrüfatında olan vəzifə və öhdəliklərdə baş vermiş dəyişikliklər üzrə suallar

**• Öhdəsindən gəlmə mexanizmləri:** bu suallar fərdlər/ev təsərrüfatı üzvlərinin COVID-19 nəticəsində ortaya çıxan əsas ehtiyaclara (qidaya sərf olunan vəsaitə qənaət, tibbi xidmət/dəstək üçün müraciətlərin azalması, qohumlar və yaxud da dövlət qurumlarından olan dəstək) sərf olunacaq vəsaiti necə ödəməsinə dair məlumatı müəyyən etmək üçün tərtib edilmişdir.

Bütün yaş və cins qruplarını təmsil edən 20 nəfər qadın və kişi ilə keçirilmiş ilkin müsahibələr nəticəsində sorğu anketi yerli kontekstə uyğunlaşdırılmışdır.

Sorğu 2020-ci il 26 aprel tarixindən 3 may tarixinədək olan dövrdə keçirilib. Telefon zəngləri saat 10:00-21:00 arasında keçirilmişdir. Sorğunun orta keçirilmə müddəti 12 dəqiqə olmuş, standart sapması isə 15 dəqiqə təşkil etmişdir.

## Etik prinsiplər

Sorğu keçirildiyi müddətdə tədqiqatın etik qaydalarına əməl olunub. Respondentlərin hər birinə sorğunu keçirən təşkilat, sorğunun məqsədi və qaydaları haqda tam məlumat verilib. Həmçinin, sorğuda iştirakın könüllü olması, respondentin sorğunu istənilən anda dayandırmaq və hər hansı suala istəmədikdə fikir bildirməmək, zəng olunan vaxt uyğun deyilsə daha sonra danışmaq hüququnun olması barədə ətraflı məlumatlandırılıblar.

Müsahibələrin məxfiliyi ciddi şəkildə qorunub. Bütün müsahibələrdə anonimlik təmin edilib. Respondentlər əmin ediliblər ki, onların cavabları yalnız ümumiləşdirilmiş şəkildə istifadə olunacaq. Bu amil sorğu nəticəsində toplanılan məlumatların yüksək etibarlılığını təmin edib.

## Sorğunu icra edən heyət

Sorğunun icrası prosesində 14 intervüyer və iki əlaqələndirici iştirak etmişdir. Sorğuda qadınlar üçün həssas sualların olduğu, habelə yerli milli-mədəni konteksti nəzərə alaraq sorğuya qadın intervüerlər cəlb edilmişdir. Bütün intervüyerlər üçün iki təlim sessiyası təşkil edilmişdir. Birinci təlimdə keçirilən sorğunun əsas məqsədi, habelə sorğu anketi üzrə ətraflı məlumat verilmişdir, İkinci təlim seçmənin formalaşması haqqında olub. Bu zaman intervüyerlərə onlara verilən nömrələrə zəng etmə qaydaları, respondentin seçilməsi üsulu barədə məlumatlar verilib. Təqdim edilmiş nəzəri məlumat sorğunun keçirilməsinə dair məşqləri də özündə ehtiva edən praktiki seminarlarla tamamlanmışdır.

## Məlumatın işlənməsi və təhlili

Sorğu başa çatdıqdan sonra hər bir anket üzrə bazaya toplanan məlumatlar xüsusi proqram SPSS - Statistical Package for the Social Sciences (Sosial Elmlər üzrə Statistik Proqram Paketi) vasitəsilə təhlil edilib. Dəyişənlər arasında statistik əhəmiyyətli əlaqənin tapılması üçün və müxtəlif sosial-demoqrafik qruplar arasında dəyişənlərin 25 müqayisəsi üçün $x^2$ testindən istifadə edilib.[5]

5-Qeyd: Yuvarlaqlaşdırma səbəbindən diaqramlarda faizlərin cəmi 100%-dən fərqli ola bilər

# RESPONDENTLƏRİN DEMOQRAFİK XÜSUSİYYƏTLƏRİ

**Seçmənin demoqrafik profilinə dair məlumatlar araşdırmanı həyata keçirən heyətə əldə edilmiş nəticələri bir çox xüsusiyyətlər üzrə müqayisə edərək təhlil aparmağa və gender dinamikasına xüsusi diqqət yetirməklə COVID-19-un təsirinə dair respondentlərin fikirlərinə təsir edən amilləri müəyyən etməyə imkan verdi.**
**Artıq qeyd olunduğu kimi, sorğuda 777 (51.4 %) nəfər qadın və 735 nəfər kişi (48.6%) olmaqla ümumilikdə 1512 nəfər respondent iştirak edib. Sorğuda iştirak etmiş qadın və kişilərin orta yaş həddi demək olar ki, eyni olmuşdur – 43 (kişilər üçün 43.2 və qadınlar üçün 43.6).**

Respondentlərin ailə vəziyyətinə dair əldə edilmiş məlumatın təhlili göstərir ki, kişilərin 73.7%-i, qadınların isə 72.5%-i sorğu zamanı evli olmuşdur. Qadınların 9.8%, kişilərin isə 22.9%-i subay idi. Bu verilənlərin yaş qrupları üzrə təhlili müəyyən edir ki, 18-24 yaş arası kişilərin 5.1%-i evli olduğu halda, qadınlar üçün bu göstərici kişilərdən 8 dəfə çox olaraq 41.1% təşkil edir. Bu nəticələr qızların hələ də daha gənc yaşlarda nikaha cəlb edilməsinin göstəricisidir.

Kişilərin 29.9%-i, qadınların isə 23.4%-i ali təhsillidir. Orta təhsilli kişi və qadınların nisbəti bərabər olduğu halda, peşə təhsili olanlar içərisində qadınlar üstünlük təşkil edir (22.3% qadın, 16.1% kişi).
Ali təhsilli respondentlərin sayı şəhərlərdə daha çoxdur və bu məlumatın cins üzrə bölgüsü şəhərlərdə ali təhsilli kişilərin qadınlara nisbətən çoxluq təşkil etməsini nümayiş etdirir (kişilərin 39.4%-i, qadınların isə 30.6%- i).

Diaqram 1: Seçmənin yaş və cins üzrə bölgüsü



Sorğunun nəticələrinə əsasən dul qadınların sayı kişilərdən 5 dəfə çoxdur (qadınların 12.9%-i, kişilərin 2.2%-i). Bu mənzərəni boşanmış insanlar arasında da müşahidə etmək olar. Belə ki, kişilərin 0.3%-i boşanmış olduğu halda, qadınların 4.1%- i boşanıb. Respondentlər əsasən müxtəlif yaş kateqori-yalarından olan ailə üzvləri ilə birgə yaşayır-lar. Onlar arasında tək yaşayanların nisbəti olduqca azdır (2.4%).

Tək yaşayan qadınların sayı (3.1%) kişilərlə (1.6%) müqayisədə daha çoxdur. Uşaqları ilə (48.4%) və uşaqlarsız (51.6%) yaşayan ailələrin say nisbəti arasında ciddi bir fərq müşahidə olunmur. Seçmə planı əldə olunacaq məlumatların yaş və cins üzrə reprezentativliyini həmçinin aşağıdakı diaqramda göstərildiyi kimi sosial-iqtisadi bölgələr üzrə də təmin etməyi qarşısına məqsəd olaraq qoymuşdur.

Diaqram 2: Seçmənin təhsil statusu




Diaqram 3: Seçmənin iqtisadi bölgələr üzrə bölgüsü



# SÜRƏTLİ GENDER QİYMƏTLƏNDİRMƏSİ: ƏSAS NƏTİCƏLƏR

## COVİD-19-la ƏLAQƏDAR MƏLUMATLARIN ƏLDƏ EDİLMƏSİ ÜÇÜN ƏSAS MƏNBƏLƏR

İstənilən xəstəliklə səmərəli mübarizə məqsədilə özünü qoruma tədbirlərinin görülməsi üçün bu xəstəlik haqqında məlumatlılıq vacib şərtlərdən biridir. Məlumatsızlıqla yanaşı, insanların müəyyən hissəsinin virusun mövcudluğuna inamsızlığı və məsuliyyətsiz davranışı xəstəliyin fəsadlarının daha da ağır olması ilə nəticələnir. Bunu nəzərə alaraq cari araşdırma COVID-19-un qarşısının alınmasına dair qadınlar və kişilərin televiziya və sosial media da daxil olmaqla istifadə etdikləri əsas informasiya mənbələrinə dair məlumatı da təhlil etmək məqsədini daşıyırdı. Bu məlumat hədəf əhalinin spesifik ehtiyac və gözləntilərinə uyğunlaşdırılmış həll startegiyalarının tərtibi prosesində Azərbaycan hökuməti üçün faydalı ola bilər.

Dünyada COVID-19-a yoluxma hallarının artması ilə Azərbaycanda da dövlət səviyyəsində pandemiya, müvafiq müdafiə və təhlükəsizlik tədbirləri haqqında genişmiqyaslı maarifləndirmə tədbirləri həyata keçirildi.

Nazirlər Kabineti yanında yaradılmış Operativ Qərargah tərəfindən əhaliyə mütəmadi əsaslarda COVID-19-la bağlı vəziyyət və aidiyyəti cavab tədbirlərinə dair məlumatlar verilir.[6] Bununla yanaşı, əhalinin pandemiya haqqında məlumat və qoruyucu tədbir və mexanizmlərə asan çıxışını təmin etmək üçün rəsmi veb-səhifə təsis edilmiş və istifadəyə təqdim edilmişdir.[7]

**Qadınlar və kişilər aidiyyəti məlumatları əsasən ənənəvi mənbələrdən əldə etmiş, internet və sosial mediadan istifadə daha az olmuşdur.**

SGQ-nin nəticələrinə əsasən respondentlərin mütləq əksəriyyəti, yəni 97.7%-i COVID-19 virusu haqda məlumatlıdır. Lakin, əhali tərəfindən müxtəlif məlumat mənbələrinin istifadəsi baxımından əhəmiyyətli fərqlər müşahidə olunur. Sorğunun nəticələri göstərir ki, televiziya kanalları COVİD-19 üzrə əsas məlumat mənbəsini təşkil etmişdir, ikinci yerdə isə internet və sosial media qərarlaşıb. Televiziya, radio və qəzetlərdən istifadə baxımından qadınlar kişilərdən bir qədər çox olsa da (67.7% qadın və 63.3% kişi), internet və sosial mediadan alınan məlumat baxımından kişilər 5% fərqlə üstünlük təşkil edir (27.2% və 22.4%).

Diaqram 4: COVID-19 üzrə əsas məlumat mənbələri (risklər, tövsiyə olunan qabaqlayıcı tədbirlər, öhdəsindən gəlmə strategiyaları)




6- Əhaliyə mütəmadi şəkildə yenilənmiş məlumatlar Nazirlər Kabinetinin veb-səhifəsinin COVİD-19 üzrə yaradılmış Operativ Qərargahın fəaliyyətini işıqlandıran ayrıca bölməsi vasitəsilə təqdim edilir: https://cabmin.gov.az/az/category/10/

7- Sözügedən veb-səhifə Azərbaycanda COVİD-19 pandemiyası, yoluxmalar, sağalmalar və ölüm halları habelə xəstəliyin simptomları və özünü-müdafiə tədbirlərinə dair məlumatı özündə əks etdirir: https://koronavirusinfo.az/az

İnternet resurslardan əsas məlumat mənbəyi kimi istifadə edən qadınlar və kişilərin təhsil statusunda əsaslı fərqlər müşahidə olunmasa da (hər iki cins üçün tam orta və ali təhsilli şəxslər üstünlük təşkil edir – təxminən 40%), COVID-19-la bağlı məlumatlar/xəbərləri internet mənbələrindən əldə edən subay qadınların sayı evli respondent qadınların sayından iki dəfədən də çox idi (müvafiq olaraq 48.7 və 21%).

Əldə edilmiş məlumatların təhlili göstərir ki, yaş artdıqca hər iki cins üzrə internet və sosial şəbəkələrdən istifadə edənlərin sayında azalma müşahidə edilir. Başqa sözlə, daha yaşlı respondentlər, xüsusilə yaşı 65-dən yuxarı olan şəxslər COVID-19-la bağlı məlumat/xəbərləri televiziya, radio, həmçinin qəzetlərdən alan əhali qrupları arasında çoxluq təşkil etdiyi təqdirdə, internet və sosial mediadan istifadə edənlər sırasında gənc nəsillərin nümayəndələri daha çoxdur.

Oxşar trendlər həmçinin müxtəlif məlumat mənbələrindən istifadəyə dair bölgələr üzrə olan fərqlərdə də müşahidə olunur. Şəhərlərdən olan qadınlar və kişilər COVID-19 üzrə məlumatı əsasən internet/sosial mediadan əldə edənlər arasında üstünlük təşkil edir. Bəzi media mənbələrinin verdiyi məlumata əsasən bu Azərbaycanın bir sıra kəndlərində internetə məhdud çıxışın olması ilə izah edilə bilər.[8] Eyni zamanda əlavə edilməlidir ki, xüsusilə şəhərlərdən olan əhali qrupları arasında rəsmi hökumət veb-səhifələrindən istifadə də az deyil.

### Cədvəl 1: Əsas məlumat mənbələrindən istifadənin cins, yaş və yaşayış yeri üzrə bölgüsü

| | Kişi | | | | | | Qadın | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Yaşayış yeri | | | Yaş qrupu | | | Yaşayış yeri | | | Yaş qrupu | | |
| | Şəhər | Qəsəbə | Kənd | 18-34 | 35-54 | 55+ | Şəhər | Qəsəbə | Kənd | 18-34 | 35-54 | 55+ |
| İnternet və sosial media (Facebook, Instagram, və s.) | 32.4% | 32.5% | 18.5% | 44.7% | 21.8% | 11.5% | 27.5% | 25% | 14.4% | 36.5% | 21.7% | 6.1% |
| Rəsmi hökumət veb - səhifələri[9] | 6% | 5.2% | 3.3% | 4.9% | 5.2% | 4.5% | 4.8% | 7.3% | 3.5% | 6.8% | 4.0% | 2.8% |
| Radio/Televiziya/Qəzet | 57.2% | 55.8% | 73.8% | 43.6% | 69.4% | 81.0% | 62.4% | 59.4% | 77.9% | 52.1% | 68.3% | 86.0% |
| Dövlət xidmətlərinin elanları səsgücləndirici | 0.8% | 2.6% | 0.4% | 0.8% | 1.1% | 0.5% | 0.3% | 0.0% | 0.4% | 0.0% | 0.7% | 0.0% |
| Telefon (Telegram Viber, WhatsApp,və ya zəng) | 0.5% | 1.3% | 0.7% | 1.5% | 0.4% | 0.0% | 0.5% | 0.0% | 1.1% | 0.4% | 0.7% | 0.9% |
| İcma, o cümlədən ailə və dostlar | 1.3% | 1.3% | 2.2% | 2.7% | 0.7% | 1.5% | 2.0% | 3.1% | 2.5% | 1.5% | 2.7% | 2.8% |
| Tibb mərkəzi/Ailə həkimi | 1.0% | 1.3% | 0.7% | 1.5% | 0.7% | 0.5% | 2.5% | 5.2% | 0.4% | 2.7% | 2.0% | 1.4% |
| COVID19 haqqında heç nə bilmirəm | 0.8% | 0.0% | 0.4% | 0.4% | 0.7% | 0.5% | 0.0% | 0.0% | 0.0% | 0.0% | 0.0% | 0.0% |

### Qadınlar və kişilər COVID-19 haqqında qənaətbəxş şəkildə məlumatlı olduğunu hiss etdiyini bildirmişdir.

Qadın və kişi respondentlərin böyük əksəriyyəti (89.1%) müxtəlif mənbələrədən COVİD-19-un qarşısının alınması ilə bağlı əldə etdiyi məlumatları/xəbərləri aydın və özləri üçün faydalı hesab edib. Məlumat mənbələri və əldə olunan məlumatların faydası arasında da əlaqə müşahidə olunur.

Respondentlər televiziyadan aldıqları məlumatları internet və sosial mediadan aldıqları məlumatlarla müqayisədə daha faydalı hesab edirlər (93.3% və 86.4%). Kişilərin təxminən 10%-i və qadınların 8%-i isə əldə etdiyi məlumatın qənaətbəxş olmadığını düşünür. Orta yaş qruplarından (35-44 və 45-54) olan respondentlər daha gənc və daha yaşlı qruplardan (18-34, 55-64 və 65+) olan respondentlərlə müqayisədə bu baxımdan daha çox şikayət edənlər sırasındadır. Bu göstəricilərdə ciddi gender fərqləri müşahidə olunmur. (bax Diaqram 5)

8- "Bu kəndlərdə təkcə internet deyil, telefon xətti belə yoxdur" (2020 https://news.milli.az/society/846849.html (son baxış tarixi - 01.07.2020)
9- 6 və 7-ci istinadlara bax

## Diaqram 5: Aldığınız məlumatı necə qiymətləndirərdiz?







## PANDEMİYANIN QADIN VƏ KİŞİLƏRİN MƏŞĞULLUQ VƏ DOLANIŞIQ MƏNBƏLƏRİNƏ TƏSİRİ

Azərbaycanda qadınların əmək bazarında iştirakı hər zaman narahatlıq doğuran məsələlərdən olaraq qadınlar üçün 62.9%, kişilər üçün isə 69.5% təşkil edib. Məvaciblərdə olan gender fərqi də əhəmiyyətli olmuşdur – 2018-ci ildə qadınların orta aylıq maaşı kişilərin orta aylıq maaşının 53.8%-i qədər idi.[10] Təhsildə olan uyğunsuzluqlar həmçinin qadınların əmək bazarında qarşılaşdıqları üfüqi və şaquli seqreqasiyanı da izah edə bilər. Qadınlar əsasən təhsil, səhiyyə və sosial xidmətlər kimi "qadın təbiəti"nə uyğun hesab edilən daha aşağı gəlirli sektorlarda çalışıb. Bu əsasən evdən kənarda olan məşğulluğun ailə öhdəlikləri ilə münaqişə təşkil etməməsi üçün onların daha aşağı səviyyəli məşğulluq şəraiti, aşağı gəlirli formal məşğulluq və ya qeyri-formal məşğulluq şərtlərini qəbul etmək istəyi ilə şərtləndirilir.[11] Beləliklə sözügedən tədqiqatın əsas vəzifələrindən biri müvəqqəti tədbirlər/məhdudiyyətlərin iqtisadi təhlükəsizlik və dolanışıq mənbələrinə təsiri, həmçinin qadınlar və kişilərin bu baxımdan fərqli təcrübələrini araşdırmaqdan ibarət idi.

### Pandemiyadan əvvəl və sonra məşğulluğun tənzimlənməsi.

**Kişilər pandemiyadan əvvəl ödənişli işlərdə məşğul olmuş şəxslərin böyük əksəriyyətini təşkil edirdi.**

SGQ-nin nəticələrinə əsasən pandemiyadan əvvəlki dövrə qədər respondentlərin hər üç nəfərindən biri (32.5%) dövlət və ya özəl sektorda çalışıb və məşğul kişilərin sayı qadınlardan 10% çox idi (37.8% və 27.5%). Kənddə yaşayanlarla müqayisədə şəhərlər və qəsəbələrdə yaşayanlar içərisində təşkilat/şirkətdə işləyənlər üstünlük təşkil edirdi (36.6% şəhərlərdə, 43.4% qəsəbələrdə, 23.6% kəndlərdə). Əldə edilmiş nəticələrin cins üzrə bölgüsünə əsasən pandemiyadan əvvəlki dövrdə kişilər məşğul və özünüməşğul əhalinin əksəriyyətini təşkil etmişdir, işsiz qadınların sayı isə işsiz kişilərin sayına nisbətən iki dəfədən də çox idi.

SGQ-nin verilənlərinin təhlili göstərir ki, işsiz qadınların demək olar ki, yarısı daha gənc yaş qrupundan (18-34) olanlardır (bütün işsiz qadınların 47.9%-i). Böyük ehtimalla bu nəticə qadınların uşaq dünyaya gətirmək və aidiyyəti ev təsərrüfatı öhdəlikləri ilə izah edilə bilər. Müvafiq olaraq, məşğul əhalinin 18-34 yaş qrupunda olanlar arasında kişilərin sayı qadınlardan çoxdur (39.6% və 23.8%).

10- DSK (2019) Əmək bazarı, Statistik illik məcmuə. Bakı, Azərbaycan
11- BMTİP/BMTƏF (2018) Azərbaycanda özəl sektorda qadınlar: imkanlar və çətinliklər.
Gender qiymətləndirilməsi hesabatı. Bakı, Azərbaycan; BMTƏF/BMTİP (2015)
Əhalinin vəziyyətinin qiymətləndirilməsi: Azərbaycanda demoqrafik keçiddən sonrakı dövr. Bakı, Azərbaycan

Diaqram 6: COVID-19 pandemiyasından əvvəl adi bir həftədə məşğulluq vəziyyətinizi ən yaxşı necə təsvir edərdiniz?




Bu nəticələr təsdiqləyir ki, qadınların iqtisadi vəziyyəti kişilərlə müqayisədə elə də qənaətbəxş olmayıb və COVID-19 pandemiyası onların maliyyə vəziyyətini daha da məhdudlaşdıraraq, səhiyyə və digər əsas xidmətlərə çıxış imkanlarına mənfi təsir etmiş olacaq.

**Qadınlarla müqayisədə daha çox kişinin fəal şəkildə iş axtarışında olması ev təsərrüfatı öhdəliklərinin əsasən qadınların üzərində olmasına işarə edir.**

Respondentlərin 12.1%-i (qadınların 7.7%-i və kişilərin 16.7%-i) işləmək iqtidarında olduğunu və iş axtardıqlarını bildirmişdir. Bütün yaşayış məntəqələrinin növləri üzrə iş axtaran kişilərin nisbətinin müvafiq kateqoriyadan olan qadınlardan daha çox olması ev təsərrüfatı ilə bağlı öhdəliklər, həmçinin uşaqlar və ahıllara qayğı üzrə yükün əsasən qadınların üzərində olmasını və bunun onların gəlir gətirən işlərə cəlb olunmasına maneə təşkil etməsi ehtimalını təsdiqləmiş olur. Bununla yanaşı, iş axtaran qadınlar arasında yaş qrupları üzrə faiz göstəricilərində statistik cəhətdən əhəmiyyətli fərqlər müşahidə olunur. 18-34 yaş qrupundan olan qadınların yarısı pandemiyadan əvvəlki dövrdə iş axtarışında olmuşdur, yaş artdıqca isə bu göstəricinin azalması müşahidə olunmuşdur.

**Kişilər əsasən işlərini itirdiyi halda, qadınlar daha çox ödənişli iş saatlarının azalmasının mənfi təsirinə məruz qalmışdır.**

SGQ-nin nəticələri göstərir ki,pandemiya əhalinin qazanc əldə etmə imkanlarına ciddi şəkildə təsir edib. İşini itirmiş 17.9% respondent arasında kişilərin sayı qadınlardan üç dəfə artıq olub (23.8% və 8.3%). Kişilər demək olar ki, bütün yaş qrupları üzrə işin itirilməsi baxımdan ən çox əziyyət çəkənlər olmuşdur və gənc yaş qruplarından olan kişilər pandemiyanın bu baxımdan mənfi təsirinə ən çox məruz qalmışdır. COVID-19-un yayılmasının qarşısının alınmasına yönəlmiş tədbirlər sırasında evdən işləmək imkanının icazə verildiyi sahələri çıxmaq şərtilə, bir çox iş yerlərində adi iş saatlarının sayı qısaldılmışdır. Qadın və kişilərin əhəmiyyətli bir qismi ödənişli işə sərf edilən saatların azalmasına dair məlumat vermişdir və qadınlar 13% fərqlə bu baxımdan mənfi təsirə daha çox məruz qalanlar olmuşdur.

Diaqram 7: Pandemiya baş verməzdən əvvəl iş axtaranların nisbətinin cins və yaşayış yerinin növü üzrə bölgüsü




Diaqram 8: İş axtaran respondentlərin nisbətinin cins və yaş qrupları üzrə bölgüsü



## Diaqram 9: İşin itirilməsi və ödənişli işə sərf olunan saatların azalması




Əldə edilmiş nəticələrin yaş üzrə bölgüsünə əsasən iş saatlarının azalması baxımından ciddi gender fərqləri müşahidə olunmasa da, gənc yaş qruplarından olan qadınlar işin itirilməsi baxımından ən çox təsirə məruz qalanlar sırasındandır.

Qadınların pandemiyadan əvvəl əmək bazarında iştirakının kişilərlə müqayisədə daha aşağı səviyyədə olmasını nəzərə alaraq ehtimal etmək olar ki, ödənişli iş saatlarının bu şəkildə azalması qadınların iqtisadi vəziyyətinə uzun müddətli mənfi təsir etmiş olacaq.

### Cədvəl 2: İşin itirilməsi və ödənişli işə sərf olunan saatların azalması, cins və yaş qrupları üzrə

| | | 18-34 | 34-44 | 45-54 | 55+ | Cəmi |
|---|---|---|---|---|---|---|
| Ödənişli iş saatları azalıb | Qadın | 50% | 42% | 49.1% | 54.9% | 48.5% |
| | Kişi | 33.8% | 43.6% | 30% | 31.3% | 35.1% |
| İşini itirib | Qadın | 11.1% | 14.5% | 5.5% | 0% | 8.3% |
| | Kişi | 23.2% | 26.6% | 31.4% | 12.5% | 23.8% |

**İş saatlarının azalmasına məruz qalmış respondentlərin nisbəti şəhərlərdə daha çox idi və qadınlar bu baxımdan üstünlük təşkil edirdi.**

Beləliklə, kəndlərdə yaşayan qadınların 42.6%-i və kişilərin 34.2%-nin iş saatları azaldığı halda, şəhər (qadınların 50.8%-i və kişilərin 37.4%-i) və qəsəbələrdə (qadınların 51.4%-i və kişilərin 26.7%-i) bu göstəricilər daha yüksək olmuşdur.

Regionlar üzrə müşahidə olunan bu cür fərqlər çox güman ki, pandemiyanın ilk aylarında ölkənin bir sıra bölgələrinin virusun yayılması baxımından daha az risk olan ərazi kimi qəbul edildiyi halda, böyük şəhərlərdə daha ciddi məhdudiyyətlərin qüvvədə olması ilə izah edilə bilər.

### Cədvəl 3: Ödənişli işə sərf olunan saatların sayında baş verən dəyişikliklər, cins və yaşayış yerinin növü üzrə

| | | Artıb | Dəyişiklik yoxdur | Azalıb, lakin işimi itirməmişəm | İşimi itirmişəm | Bilmirəm |
|---|---|---|---|---|---|---|
| Şəhər | Qadın | 4.3% | 35.5% | 37.4% | 21.3% | 1.4% |
| | Kişi | 33.8% | 43.6% | 30% | 31.3% | 0% |
| Qəsəbə | Qadın | 10.8% | 32.4% | 51.4% | 5.4% | 0% |
| | Kişi | 6.7% | 44.4% | 26.7% | 20.0% | 2.2% |
| Kənd | Qadın | 2.9% | 44.1% | 42.6% | 7.4% | 2.9% |
| | Kişi | 5.3% | 29.8% | 34.2% | 29.8% | 0.9% |

## Məşğulluq yeri üzrə yeni qaydaların qüvvəyə minməsi

**Qadınların böyük əksəriyyəti pandemiya zamanı evdən işləməyə məcbur olmuşdur.**

COVID-19-un yayılmasının qarşısını almaq məqsədilə bəzi iş yerləri müvəqqəti olaraq fəaliyyətini dayandırsa da, işçi heyət müxtəlif kommunikasiya vasitələrindən istifadə etməklə işini davam etdirirdi. Əldə edilmiş nəticələrin təhlili bu baxımdan ciddi gender fərqlərini müəyyən etmişdir.

Belə ki, kişilərin böyük əksəriyyəti (57.3%) evdən kənarda işini davam etdirdiyi halda, qadınlar pandemiya başlayandan etibarən əsasən evdən işləməyə məcbur olmuş əhali qrupları arasında çoxluq təşkil edirdi (74.9%).

Nəticələrin yaş və cins üzrə bölgüsü nümayiş etdirir ki, bütün yaş qruplarından olan qadınlar tipik iş yerinin dəyişdirilməsi nəticəsində evdən çalışmağa məcbur olmuş və ev təsərrüfatı öhdəliklərinin əlavə yükünü üzərinə götürmüş şəxslərin mütləq əksəriyyətini təşkil etmişdir.

Diaqram 10: Tipik iş yeri ilə bağlı baş verən dəyişikliklər




**Kişilərlə müqayisədə qadınlar ödənişli məzuniyyət imkanından daha çox faydalanmış, eyni zamanda ödənişsiz məzuniyyət götürənlərin də əksəriyyətini təşkil etmişdir.**

Sorğunun nəticələrinə əsasən respondentlərin cəmi 23.1%-nin məzuniyyət hüququ olmadığı halda, respondentlərin 29%-i tam ödənişli məzuniyyətdən faydalanıb.

Seçmənin 40%-i məzuniyyət götürməyib. Əldə edilən nəticələrin cins üzrə bölgüsü göstərir ki, ödənişli məzuniyyətə çıxanlar arasında qadınlar üstünlük təşkil edir (42.6% və 16.9%). Lakin ödənişsiz məzuniyyətə göndərilənlər (4.3%) içərisində də qadınların nisbəti daha çoxdur (50.3% qadın, 23.1% kişi).

### Cədvəl 4: Tipik iş yeri ilə bağlı baş verən dəyişikliklər, cins və yaş qrupları üzrə

| | | 18-34 | 35-44 | 45-54 | 55+ | CƏMİ |
|---|---|---|---|---|---|---|
| Bəli, mən evdən kənarda işləyirdim, indi isə öz evimdən işləyirəm | Kişi | 44.2% | 44.2% | 30% | 44.8% | 41.8% |
| | Qadın | 70.2% | 80% | 73.3% | 75% | 74.9% |
| Xeyr, mən evdən kənarda işləyirdim, indi də işə gedirəm | Kişi | 54.7% | 53.8% | 70% | 55.3% | 57.3% |
| | Qadın | 29.8% | 20% | 24.4% | 22.9% | 24.1% |
| Xeyr, əvvəllər olduğu kimi, indi də evimdən işləyirəm | Kişi | 1.2% | 1.9% | 0% | 0% | 0.9% |
| | Qadın | 0% | 0% | 2.2% | 2.1% | 1% |

Bu nəticələr böyük ehtimalla qadınların əsasən pandemiya ilə bağlı tətbiq edilən məhdudlaşdırıcı tədbirlər nəticəsində bağlanmış təhsil və xidmət təchizatı kimi sektorlarda çalışmaqları ilə izah edilə bilər.

Bu aşağı gəlirli işlərdə çalışan və pandemiya zamanı işsiz qalaraq maliyyə məhru-miyyətinə məruz qalmaq baxımından daha çox risk altında olan qadınlarının vəziyyətinə mənfi təsir baxımından kifayət qədər narahatlıq doğuran bir nəticədir.

Diaqram 11: COVID-19 yayılandan etibarən, məzuniyyət götürməyə vadar edilmisizmi?




## Pensiyalar və işsizlik müavinətlərinin verilməsinə təsir

### Qadın və kişilərin 10%-nin işəgötürəni tərəfindən pensiya ödənişləri edilmir.

Sorğunun nəticələri göstərir ki, məşğul əhalinin 81.75%-i işəgötürən tərəfindən edilən pensiya ödənişlərindən bəhrələnir və bu baxımdan ciddi gender fərqləri müşahidə edilmir (qadınların 82.7%-i və kişilərin 80.5%-i).Halbuki, hər iki cins qrupundan olan respondentlərin təxminən 10%-nin işəgötürəni tərəfindən pensiya ödənişləri həyata keçirilmir.

Bu respondentlər arasında 18-34 yaş qrupundan olan kişilər çoxluq təşkil edir (42.3%), qadınlar üçün isə müvafiq yüksək göstərici 35-44 yaşından olan şəxslər üçün müşahidə olunur (37.5%). Qadın və kişilərin kiçik bir faizi ümumilikdə bu haqda hər hansı bir məlumata malik olmadığını bildirmişdir. Güman etmək mümkündür ki, tənzimlənmiş pensiya mexanizmlərindən kənarda qalmış bu qadın və kişilər əsasən qeyri-formal sektorlarda çalışdıqları üçün, pandemiya nəticəsində azalmış gəlir və əsas xidmətlərə çıxış baxımından daha əlverişsiz şəraitdə olan şəxslərdir.

## Diaqram 12: İşəgötürən sizin üçün pensiya/sosial sığorta haqqları ödəyirmi?




**İşsizlik müavinətlərinin alınması baxımından kişilər cüzi bir fərqlə çoxluq təşkil edir.**

Maraqlıdır ki, COVID-19 yayılandan etibarən nisbətən daha çox kişi (3% fərqlə) işsizlik müavinətləri aldığına dair məlumat vermişdir. Gənc yaş qrupundan (18- 34 yaş qrupu) olan qadın və kişilər bu baxımdan əsas faydalananlar olmuşdur (müvafiq olaraq 11.4% və 19.3%) və bu baxımdan ciddi gender fərqi müşahidə olunur. Bu nəticə sorğunun pandemiya yayılandan etibarən kişilərin iş yerinin itirilməsi baxımından mənfi təsirə məruz qalan əsas qrup olmasına dair məlumatla uyğunluq təşkil edir.

## Biznes fəaliyyətinə təsir

**Biznes sahibi olan və biznes işlədən qadınların sayı olduqca əhəmiyyətsiz idi.**

Seçmədə biznes sahibi olan respondentlərin sayı ümumilikdə çox az idi. Bütün respondentlərin yalnız 8.5%-i (129 nəfər) hər hansı bir biznes fəaliyyəti ilə məşğul idi. Bu əhali qrupunun 1.2%-i əlavə əmək qüvvəsi işlədir, 7.3% isə özünüməşğul şəxslər idi. Bu verilənlərin cins üzrə bölgüsü kişilərin üstünlük təşkil etdiyini nümayiş etdirir: kişi seçməsinin 14.8%-i, qadın seçməsinin isə yalnız 2.6%-i hər hansı bir biznes fəaliyyəti ilə məşğul idi və onlar əsasən 35-44 (41.2%) və 45-54 (29.4%) yaş qruplarından idi.




## Cədvəl 5: Biznesi olan respondentlərin nisbətinin cins və yaşayış yerinin növü üzrə bölgüsü

| | | Mənim öz biznesim var idi Özünüməşğul idim və başqa işçilərim var idi | Mənim öz biznesim var idi Özünüməşğul idim və başqa işçilərim yox idi |
|---|---|---|---|
| Şəhər | Kişi | 2.3% | 12.5% |
| | Qadın | 0.5% | 2.0% |
| Qəsəbə | Kişi | 1.3% | 5.2% |
| | Qadın | 1.0% | 1.0% |
| Kənd | Kişi | 1.8% | 15.3% |
| | Qadın | 0% | 2.8% |

Kişi respondentlər həmçinin öz biznes təşəbbüsünün rəsmi qeydiyyatı baxımından da daha yaxşı nəticələr nümayiş etdirir (52.6% və 26.7%). Bu nəticələr qadınların qeydiyyat prosesi zamanı ortaya çıxacaq digər əlavə xərclərdən ehtiyat etdiyinə dair digər bir araşdırmanın nəticələri ilə üst-üstə düşür.[12] COVID-19 nəticəsində maliyyə gəlirlərinin azalması qadınların biznes təşəbbüslərinin istər fəaliyyətin davamlılığı, istərsə də hüquqi qeydiyyatı baxımından daha mənfi nəticələrə səbəb ola bilər.

**Biznesi olan qadınların sayının çox kiçik olmasına baxmayaraq, onlar kişilərlə müqayisədə COVİD-19-un mənfi təsirinə daha çox məruz qalmışdır.**

Həm qadın, həm də kişilərin sahib olduğu biznes müəssisələrinin pandemiyanın mənfi təsirinə məruz qalmasına baxmayaraq, qadınlar daha çox zərərçəkmişlər sırasında olub. SGQ-nin nəticələrinə əsasən biznes fəaliyyətinin həcminin azalması baxımından kişilər, biznesin ciddi təsirə məruz qalaraq tamamilə dayanması baxımından isə qadınlar üstünlük təşkil etmişdir. Böyük ehtimalla bu ikinci dərəcəli biznes müəssisələrinin bağlanması və iş saatlarının azalmasına səbəb olmuş ciddi məhdudlaşdırıcı tədbirlərin tətbiq olunması nəticəsində baş vermişdir.

## Dolanışıq resurslarının itirilməsi

**Əhalinin müxtəlif mənbələrdən əldə etdiyi gəlirlərin itirilməsi baxımından ciddi gender fərqləri müşahidə olunub və bu zaman qadınlar əsasən pul köçürmələrinin azalması, kişilər isə ödənişli iş və təsərrüfatdan əldə olunan gəlirin azalması baxımından əziyyət çəkib.**

Ümumilikdə, COVID-19 virusunun yayılması özünün/ailə biznesi (82.2%), fermer təsərrüfatı (47.2%), pul köçürmələri (36.3%) və ödənişli işdən (30.7%) əldə olunan gəlirlərə xüsusilə mənfi təsir etmişdir. Bu nəticələrin cins üzrə bölgüsünə görə kişilər əsasən ödənişli iş (11% fərqlə) və fermer təsərrüfatından (18% fərqlə) əldə edilən gəlir, qadınlar isə pul köçürmələrinin (9.8% fərqlə) azalması baxımından mənfi təsirə məruz qalıb. Pul köçürmələrinə gəldikdə isə yaşlı qadınlar, xüsusilə də 45-54 və 55+ yaş qruplarından olan qadınların yarısından çoxu daha çox məhrumiyyətlərə məruz qalıb (müvafiq olaraq 60% və 53.3%). Eyni zamanda, qadın və kişilərin gəlirinin azalması əsasən ailə biznesi üzrə baş vermişdir (82%-dən bir az artıq). Ehtimal etmək olar ki, bu nəticələr ikinci dərəcəli biznes müəssisələrinin bağlanması və iş saatlarının azalmasına səbəb olmuş məhdudlaşdırıcı tədbirlərin birbaşa nəticəsidir.

Diaqram 14: COVID-19-un biznesə təsiri




12- GIZ Azərbaycan (2016) Qadın sahibkarlığı üzrə siyasətin qiymətləndirilməsi və qadın sahibkarlığı üzrə tərəfdaşlarla keçirilmiş sorğu.: https://psd-tvet.de/wp/wp-content/uploads/AZ_GIZ-Women-Enrepreneurship.pdf (son baxış tarixi - 25.07.2020)

Diaqram 15: Bir sıra şəxsi resurs mənbələrindən olan gəlirin azalması




**Hökumət və ya QHT-lərdən natura formasında dəstək alan qadın və kişilərin sayı olduqca azdır.**

SGQ-nin nəticələri göstərir ki, seçmənin böyük əksəriyyəti hökumət, yerli bələdiyyə orqanları və yaxud da qeyri-kommersiya təşkilatları tərəfindən natura formasında hər hansı bir yardım almayıb. Kişi respondentlərin 92%-dən çoxu və qadın respondentlərin 94%-dən çoxu hökumət və/və ya yerli bələdiyyə orqanlarından natura formasında yardım almadığını bildirib. Respondentlərin 98%-dən çoxu QHT-lərdən hər hansı bir yardım almadığına dair məlumat verib.

Hökumətdən natura formasında yardım alanların ümumi göstəricisi cəmi 6.7% təşkil edib (5.2%-i ərzaq, 1.2%-i profilaktik vasitələr, 0.7%-i şəxsi gigiyena vasitələri). Qeyri-hökumət təşkilatlarından yardım alanların göstərici isə daha da azdır - 1.4%. Hər iki mənbədən əldə edilmiş dəstək əsasən ərzaq formasında olmuşdur. Müəyyən edilmiş bu göstəricilərdə gender fərqləri əhəmiyyətsiz olsa da, dəstək almış kişilərin sayı qadınlara nisbətən daha çox olmuşdur. Bu nəticələr ölkədə QHT-lərin məhdud maliyyə vəsaitləri ilə çalışdığına görə böhran zamanı əhalinin xüsusi müdafiə tədbirlərinə ehtiyacı olan qruplarına dəstək vermək iqtidarında olmadığını təsdiqləyir.

## Cədvəl 6: Hökumətdən natura formasında (ərzaq, vasitələr və s.) alınan dəstək

| | | Bəli, ərzaq | Bəli, profilaktik vasitələr | Bəli, şəxsi gigiyena vasitələri | Xeyr |
|---|---|---|---|---|---|
| Kişi | 18-34 | 5.3% | 1.5% | 0.8% | 92.4% |
| | 34-44 | 8.2% | 0.0% | 0.7% | 91.2% |
| | 45-54 | 5.6% | 2.4% | 0.0% | 92.7% |
| | 55+ | 6.0% | 3.5% | 0.5% | 91.5% |
| | Cəmi | 6.1% | 1.9% | 0.5% | 92.0% |
| Qadın | 18-34 | 4.9% | 0.8% | 0.4% | 93.9% |
| | 34-44 | 2.5% | 0.6% | 1.9% | 95.6% |
| | 45-54 | 2.1% | 0.0% | 1.4% | 96.4% |
| | 55+ | 6.1% | 0.5% | 0.0% | 93.5% |
| | Cəmi | 4.2% | 0.5% | 0.8% | 94.6% |

### Cədvəl 7: QHT-lər və digər qeyri-kommersiya təşkilatlarından natura formasında (ərzaq, vasitələr və s.) alınan dəstək

| | | Bəli, ərzaq | Bəli, profilaktik vasitələr | Xeyr |
|---|---|---|---|---|
| Kişi | 18-34 | 1.5% | 0.0% | 98.5% |
| | 34-44 | 0.7% | 0.0% | 99.3% |
| | 45-54 | 2.4% | 0.8% | 96.8% |
| | 55+ | 1.5% | 0.0% | 98.5% |
| | Cəmi | 1.5% | 0.1% | 98.4% |
| Qadın | 18-34 | 2.3% | 0.0% | 97.7% |
| | 34-44 | 0.6% | 0.0% | 99.4% |
| | 45-54 | 0.0% | 0.0% | 100% |
| | 55+ | 0.9% | 0.5% | 98.6% |
| | Cəmi | 1.2% | 0.1% | 98.7% |

**Pandemiya davam edəcəyi təqdirdə əhalinin gələcək maliyyə vəziyyəti.**

Pandemiya davam edəcəyi təqdirdə gələcək maliyyə vəziyyətinə dair daha bədbin düşüncələrə malik olan kişilərin sayı qadınlara nisbətən iki dəfə çoxdur. Böhran vəziyyətinin davam edəcəyinə baxmayaraq, məvaciblərini tam şəkildə ala biləcək qadınlarla kişilərin arasında statistik cəhətdən əhəmiyyətli fərqlər müşahidə olunur və qadınlar bu baxımdan daha nikbin mövqe nümayiş etdirir. Və bu nəticə əslində sözügedən sorğunun kişilərin iş yerlərinin itirilməsi baxımından daha çox təsirə məruz qaldığına dair nəticələrlə uyğunluq təşkil edir (23.8% və 8.3%). Əksər yaş qruplarından olan kişilər iş yerinin itirilməsi baxımından ən çox təsirə məruz qalanlar olmuşdur (18-34 yaşlı kişilərin 37.5%-i, 35-44 yaşlı kişilərin 28.4%-i və 45-54 yaşlı kişilərin 25%-i) və əslində bu nəticələr pandemiyanın davam edəcəyi təqdirdə kişilərin gələcək gəlirlərinə dair bədbin fikirlərinin səbəbini izah edə bilər.

**Kirayə və əsas xərcləri ödəmək iqtidarında olmayacağına dair məlumat vermiş qadın və kişilərin nisbəti, demək olar ki, bərabər olmuşdur.**

SGQ-nin nəticələrinə əsasən COVID-19 pandemiyasının yayılması əhalinin iqtisadi vəziyyəti və dolanışıq mənbələrinə təsirsiz ötüşməyib. Seçmədə olan respondentlərin böyük əksəriyyəti pandemiyanın davam edəcəyi təqdirdə baş verəcək maliyyə çətinliklərinin ərzaq və şəxsi gigiyena vasitələrinin əldə edilməsi (qadınların 69%-i və kişilərin 67-i), habelə kirayə və kommunal ödənişlərin edilməsinə (qadınların 65.1%-i və kişilərin 64.9%-i) mənfi təsir edə biləcəyini düşünür. Yerli hökumət orqanlarına etibar edən qadın və kişilərin sayı qohum və dostlardan ibarət qeyri-formal şəbəkələrə etibar edənlərdən daha çoxdur. Hər iki kateqoriya üzrə kişilərin sayı qadınlardan üstündür.

Diaqram 16: Pandemiyanın davam edəcəyi təqdirdə COVID-19-un gəlirlərə təsirinə dair respondentlərin fikirləri




## Cədvəl 8: Pandemiyanın davam edəcəyi təqdirdə COVID-19-un gəlirlərə təsirinə dair respondentlərin fikirləri, cins və yaş qrupları üzrə

| | | 18-34 | 35-44 | 45-54 | 55+ |
|---|---|---|---|---|---|
| Tam əmək haqqı almağa davam edərdim | Kişi | 64.2% | 55.1% | 68.8% | 71.4% |
| | Qadın | 75.0% | 79.7% | 69.2% | 76.5% |
| Qismən əmək haqqı almağa davam edərdim | Kişi | 10.1% | 15.9% | 12.5% | 0.0% |
| | Qadın | 8.3% | 5.1% | 11.5% | 3.9% |
| Yəqin ki, əmək haqqı almazdım | Kişi | 20.2% | 21.7% | 14.6% | 23.2% |
| | Qadın | 10.4% | 10.2% | 17.3% | 11.8% |
| Bilmirəm | Kişi | 5.5% | 7.2% | 4.2% | 5.4% |
| | Qadın | 6.3% | 5.1% | 1.9% | 7.8% |

## Cədvəl 9: Pandemiyanın davam edəcəyi təqdirdə qadın və kişilərin gələcək maliyyə durumuna dair fikirləri, cins və yaş qrupları üzrə

| | | 18-34 | 35-44 | 45-54 | 55+ | CƏMİ |
|---|---|---|---|---|---|---|
| Əsas xərcləri (ərzaq, gigiyena məhsulları və s.) qarşılamaq çətin ola bilər | Kişi | 69.2% | 74.4% | 76.4% | 58.9% | 68.7% |
| | Qadın | 69.7% | 72.8% | 69.4% | 58.5% | 67.2% |
| Kirayə və kommunal ödənişləri ödəmək çətin ola bilər | Kişi | 65.0% | 70.0% | 70.7% | 57.9% | 65.1% |
| | Qadın | 66.3% | 70.1% | 69.4% | 56.5% | 64.9% |
| Tibbi xidmətlər/yardımdan istifadəni dayandırmalı ola bilərik | Kişi | 47.5% | 56.3% | 59.3% | 50.0% | 52.1% |
| | Qadın | 43.9% | 59.2% | 50.8% | 51.0% | 50.1% |
| Qohumlardan və dostlardan kömək istəməli ola bilərik | Kişi | 35.0% | 34.4% | 36.4% | 27.6% | 33.1% |
| | Qadın | 40.5% | 42.9% | 36.3% | 28.5% | 37.0% |
| Yerli orqanlardan kömək istəməli ola bilərik | Kişi | 48.7% | 52.5% | 46.4% | 36.0% | 45.6% |
| | Qadın | 56.4% | 54.4% | 50.0% | 39.0% | 50.2% |
| Kredit götürməli ola bilərik | Kişi | 21.7% | 25.6% | 30.0% | 14.0% | 21.9% |
| | Qadın | 33.7% | 22.4% | 24.2% | 10.5% | 23.5% |

## EV İŞLƏRİNİN BÖLGÜSÜ

Mövcud dəlillər göstərir ki, Azərbaycanda ev işlərinin böyük əksəriyyətinin yükü hələ də qadınların üzərindədir və onların həyat yoldaşı/ailə üzvləri onlara bu baxımdan elə də yardım etmir. Kişilərin gender bərabərliyinə münasibətinə dair keçirilmiş tədqiqatın nəticələrinə əsasən qadın təmizlik, yemək bişirmə, paltar yuma və kiçik qardaş və bacılarına qayğı göstərmək üçün respondentlərdən uşaqlıqdan analarına kömək edilməsi gözlənilir və beləliklə də onlar bu vərdişləri öyrənmiş olurlar. Bu yanaşma əslində ikili məqsəd daşıyırdı. Həmin analar bir tərəfdən gündəlik ev işlərini bitirmək üçün kömək əldə edir, digər tərəfdən isə gələcəkdə ana və həyat yoldaşı rolunda çıxış edəcək qızlarına lazım olacaq bacarıqları aşılayırdı. Qadınların ev işlərinə dair rollarının bu cür gender təyinatı cəmi 54% kişi ilə müqayisədə 94% qadının uşaq ikən dörd əsas ev işindən (yemək hazırlamaq, ev təmizləmək, paltar yumaq və hamam-ayaqyolunu təmizləməkdən ibarət) biri və ya bir neçəsi ilə məşğul olması barədə məlumat verməsini izah edə bilər.[13]

Cari sorğu da COVID-19 və onunla bağlı məhdudiyyət və tənzimləmələrin ev təsərrüfatında olan rol və öhdəliklərə təsirini tədqiq etməyi qarşısına məqsəd kimi qoymuşdur. Yuxarıda təqdim olunmuş təhlil pandemiya nəticəsində baş vermiş dəyişikliklərin kişilərin əsas qazanc gətirən, qadınların isə ev işlərinin böyük əksəriyyətini icra edən şəxslər olmasına dair ənənəvi gender rollarını daha da möhkəmləndirdiyini müəyyən etdi.

### Ödənilməyən ev və qayğı işləri

**COVID-19 pandemiyası nəticəsində qadınların ev işləri ilə bağlı olan qeyri- bərabər yükü əhəmiyyətli şəkildə artıb.**

Qadınların evdən işləməyə vadar edilməsi onların ev işləri yükünün daha da artmasına səbəb oldu. Hər hansı bir ev işinə daha çox vaxt sərf edən qadın respondentlərin sayı kişilərlə müqayisədə daha çoxdur (62.9% və 55.8%). Evdən işləməyə vadar edilmiş qadınların böyük əksəriyyəti (86.4%) həmçinin bütün ev işlərinin yükünün artdığını hiss etdiyinə dair məlumat vermişdir. Hər iki cinsin nümayəndəsinin ev işlərinin artmasına dair məlumat verdiyinə baxmayaraq, qadınların yeməkləri bişirmək və servis etmək, öz yaşayış sahəsini və ətrafını təmizləmək/saxlamaq və uşaqlara qayğı göstərmək üzrə yükü xüsusilə artmışdır.

Diaqram 17: Ev işlərinə sərf olunan saatların sayının artması




13- BMTƏF/AQUPDK (2018) Azərbaycanda gender bərabırliyi və gender münasibətləri: mövcud vəziyyət və imkanlar. Kişilərin gender bərabərliyininə münasibətinə dair tədqiqatın (IMAGES) nəticələri. Bakı, Azərbaycan

**Ödənişsiz ev işlərinin sayı artdıqca gender fərqləri daha da nəzərəçarpan olur.**

Demək olar ki, hər iki qadından biri ən azı bir ev işi üzrə yükünün artmasına dair məlumat verib, eyni məlumatı kişilərin hər üçündən biri təsdiqləyib.

İki və daha artıq ev işinin görülməsinə dair məlumatın təhlili göstərir ki, ev işləri artdıqca, kişilərin icra etdiyi işlərin sayında azalma müşahidə olunur. Belə ki, ən azı üç ev işinin görülməsi ilə bağlı məlumat verən qadın və kişilərin nisbəti müvafiq olaraq 9% və 5% təşkil edir.

Diaqram 18: Bir neçə ev işinə daha çox vaxt sərf edən respondentlərin nisbəti




**Ən çox vaxt sərfiyyatı tələb edən ev işlərinin görülməsi baxımından qadın və kişilərin müvafiq nisbətləri arasında ciddi fərqlər müşahidə olunur.**

Kişi respondentlərin uşaqlarla oynamaq (40.7%), ev üçün bazarlıq (16.2%), və ev işlərinin idarə olunması (24.7%) ilə bağlı gördükləri işə sərf olunan vaxtda artım olduğuna baxmayaraq, yeməkləri hazırlamaq, təmizlik işləri görmək və uşaqlara qayğı kimi əksər ev işlərinin yükü hələ də qadınların üzərindədir.

Diaqram 19: COVID-19 yayılandan etibarən hansı fəaliyyətə daha çox vaxt sərf etmisiz?



Bu nəticələr göstərir ki, hətta milli səviyyədə baş verən, qadın və kişilərin evdə daha çox vaxt keçirməsi ilə nəticələnən pandemiya zamanı belə ev təsərrüfatında olan ənənəvi iş bölgüsündə dəyişikliklər baş verməmişdir. Müxtəlif ev işlərini görən qadın və kişilərin nisbətində olan fərqlər qalmaqdadır və COVID-19 pandemiyasından əvvəlki dövrdə olduğu kimi, ödənilməyən ev və uşağa qayğı işlərinin yükü yenə də qadınların üzərindədir. Evdən işləməyə vadar edildikdən sonra qadınlar həmçinin əlavə rutin və təkrarlanan öhdəlikləri də öz üzərinə götürməli olmuşdur.

Bununla yanaşı qeyd edilməlidir ki, məktəblərin pandemiya başlayan kimi bağlanması və bunun nəticəsi olaraq uşaqların evdən təhsilini davam etdirməsi də hər iki valideyn üçün uşaqlara dərslərini etmək üçün dəstək vermək, habelə onlarla gün ərzində vaxt keçirərək, onların qayğısına qalmaqla bağlı əlavə yük yaratmış oldu.  SGQ-nin nəticələrinə əsasən qadınların sayı bu indikator üzrə də kişilərə nisbətən daha çoxdur (44.5% və 40.7%).  Kişilər qadınlara kömək etsələr də, bunu kifayət qədər məhdud şəkildə və əsasən iti gəzdirmək, bazarlıq etmək, ev təsərrüfatının maliyyə idarə etməsini təmin etmək kimi nisbətən daha asan işlərlə bağlı etmişdir.

**Cədvəl10: COVID-19-un yayılması nəticəsində aşağıdakı işlərə sərf edilən saatların sayında dəyişiklik baş veribmi?**

| | Adətən bunu mən etmirəm | | Artıb | | Dəyişməyib | | Azalıb | |
|---|---|---|---|---|---|---|---|---|
| | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| Yeməkləri bişirmək və servis etmək | 86.3% | 5.9% | 2.4% | 29.9% | 8.3% | 58.4% | 3.0% | 5.8% |
| Öz yaşayış sahəmizin və ətrafımızın təmizlənməsi və saxlanması (məsələn, paltarlar, ev təsərrüfatı) | 48.1% | 6.3% | 19.4% | 33.9% | 29.1% | 57.2% | 3.5% | 2.6% |
| Ev təsərrüfatının idarə edilməsi (məsələn, kommunal ödənişlərin edilməsi) | 12.0% | 41.7% | 24.7% | 12.6% | 53.9% | 39.9% | 9.5% | 5.7% |
| Ailə/ev təsərrüfatı üzvü üçün bazarlıq etmək | 13.2% | 43.4% | 16.2% | 12.2% | 49.1% | 25.5% | 21.6% | 18.9% |
| Su/odun/yanacaq toplamaq | 29.5% | 46.9% | 11.6% | 10.5% | 47.3% | 30.8% | 11.6% | 11.9% |
| Uşaqlarla oynamaq, danışmaq və oxumaq | 19.9% | 10.9% | 40.7% | 44.5% | 34.5% | 39.8% | 4.9% | 4.7% |
| Uşaqları öyrətmək, tapşırıq vermək, dərs keçmək | 42.3% | 25.9% | 34.3% | 44.5% | 20.0% | 23.1% | 3.4% | 6.5% |
| Uşaqlara qayğı göstərmək, o cümlədən qidalandırmaq, təmizləmək, fiziki qulluq | 41.3% | 12.9% | 27.7% | 44.8% | 27.5% | 39.8% | 3.5% | 2.6% |
| Ahıl yaşlı/xəstə/əlilliyi olan böyüklərə tibbi qayğı, yemək, təmizlik, fiziki qulluğu təmin etmək | 33.9% | 17.2% | 26.6% | 28.5% | 36.0% | 50.2% | 3.5% | 4.1% |
| Ailənin yetkinlik yaşına çatmış üzvlərinə mənəvi- emosional dəstək vermək | 16.6% | 12.3% | 29.8% | 41.3% | 50.0% | 41.6% | 3.6% | 4.7% |
| Ev heyvanına baxmaq | 36.0% | 24.9% | 12.1% | 8.1% | 48.5% | 60.8% | 3.3% | 6.2% |

**Qadınlar ev təsərrüfatının idarə edilməsini tək şəkildə, ailə üzvlərinin dəstəyi olmadan icra edən şəxslər arasında çoxluq təşkil edir.**

Respondentlərin 37.5%-i ev təsərrüfatının idarə edilməsini digər ailə üzvlərinin dəstəyi olmadan icra edirlər. Kişi respondentlərin 81%-nin və qadın respondnetlərin 51.3%-nin həyat yoldaşlarının onlara ev işlərinin görülməsində kömək etməsinə dair məlumat verməsinə baxmayaraq, qadınlar ev təsərrüfatını təkbaşına idarə edən şəxslər arasında çoxluq təşkil edir (qadınların 44.1%-i və kişilərin 30.5%-i). Bu məlumatların cins və nikah statusu üzrə bölgüsü də maraqlı dinamikanı müəyyən edir.

Diaqram 20: Respondentlərin "Mən hər şeyi özüm edirəm,heç kəs mənə ev işləri və ailəyə qayğı məsələlərində kömək edə bilmir" sualına dair fikirləri




Evli və dul/boşanmış qadınların təqribən yarısı ev təsərrüfatını təkbaşına idarə edir (46.4% və 50%). Maraqlıdır ki, ev təsərrüfatını təkbaşına idarə edən qadınlar bütün yaş qrupları üzrə çoxluq təşkil edir, eyni zamanda, bir sıra yaş qrupları üzrə ciddi gender fərqləri müşahidə olunur: 35-44 yaş qrupunda 55% və 32%; 45-54 yaş qrupunda 55% və 30.6%; 55+ yaş qrupunda 44.9% və 36.5%. Ehtimal edildiyi kimi, subay və dul kişilər ev təsərrüfatını təkbaşına idarə etdiyi halda, evli kişilər ev işləri üzrə öhdəliklərin ənənəvi gender bölgüsünə əsasən bu sahədə demək olar ki, çox az şəkildə iştirak edir.

Bununla yanaşı, ev təsərrüfatını tək şəkildə idarə edən dul kişilərin nisbəti dul qadınlardan daha çoxdur ki, bunu da bu qadınların əsasən genişləndirilmiş ailələrin üzvləri ilə birlikdə yaşaması və onların dəstəyindən bəhrələnməsi ilə izah etmək mümkündür. Bu nəticələr bir daha təsdiqləyir ki, hətta pandemiya dövründə belə ev işlərinin görülməsi ilə bağlı mövcud gender dinamikasında elə də böyük dəyişikliklər baş verməmişdir.

Diaqram 21: Ev işlərini heç kimin dəstəyi olmadan idarə edən respondentlərin nikah statusu üzrə bölgüsü



## Diaqram 22: Ev işlərini heç kimin dəstəyi olmadan idarə edən respondentlərin yaş üzrə bölgüsü




**Qadınlar yaxın ailə üzvlərinin, xüsusilə də oğullarının köməyindən faydalanıb.**

Bütün respondentlərin 41%-i digər ailə üzvlərinin onlara ev işləri və / və ya ailəyə qayğı ilə bağlı kömək etdiyinə dair məlumat verib və bu baxımdan ciddi gender fərqləri müşahidə edilməyib (qadınların 39.4%-i və kişilərin 42.4%-i). Bununla yanaşı, oğullarının ev işlərində onlara daha çox kömək etdiyini bildirən qadın və kişilərin nisbəti (qadınların 27.3%-i və kişilərin 24.1%-i) qızlarının köməyindən faydalanan respondentlərin sayından daha çox olmuşdur (qadınların 19.4%-i və kişilərin 19.6%-i).

## ƏSAS XİDMƏTLƏRƏ ÇIXIŞ

COVID-19 pandemiyası və hökumət tərəfindən tətbiq edilən aidiyyəti məhdudiyyətlər nəticəsində ölkədaxili hərəkətin məhdudlaşdırılması, habelə xarici ölkələrlə sərhədlərin bağlanması əhali arasında səhiyyə xidmətlərinə çıxış, istehlak olunan ərzaq malları və fərdi tibbi müdafiə vasitələrinin əlçatanlığı baxımından müəyyən narahatlıq doğurmuş oldu.

### Tibbi preparatlar və səhiyyə xidmətlərinə çıxış

**Kişilər qadınlarla müqayisədə fərdi tibbi müdafiə vasitələrinə çıxış baxımından daha çox çətinliklə üzləşib.**

COVID-19-un sürətli şəkildə yayılması insanları fərdi tibbi müdafiə vasitələrinə daha çox diqqət yetirməyə sövq etdi. Bununla yanaşı, davamlı şəkildə həyata keçirilən ictimai maarifləndirmə tədbirləri və fərdi tibbi müdafiə vasitələrindən istifadəyə dair tövsiyələr əhali arasında bu vasitələrə dair olan tələbatı artırmış oldu. Respondentlərin cəmi 13.8%-i bu vasitələrə ehtiyacı olmadığını qeyd etdiyi halda, qadın və kişilərin yarısından çoxu bu vasitələri əldə etmək üçün heç bir maneələrlə üzləşməmiş, eyni zamanda, qadın və kişilərin üçdə biri bu baxımdan müəyyən maneələrlə qarşılaşdıqlarını bildirmişdir. Böyük çətinliklərlə üzləşmiş kişilərin nisbəti seçmədəki qadınların sayına nisbətən iki dəfə daha çoxdur.

Diaqram 23: Fərdi tibbi müdafiə vasitələrinə çıxış




Fərdi tibbi müdafiə vasitələrinə ehtiyacı olmadığını qeyd etmiş respondentlərə dair əldə edilmiş məlumatın əlavə təhlili göstərir ki, bu şəxslər arasında yaşı 55-dən yuxarı olanlar çoxluq təşkil edir (qadınların 39.4%-i və kişilərin 37%-i). Böyük ehtimalla yaşlı insanların fərdi tibbi müdafiə vasitələrinə ehtiyacının olmaması məhdudiyyətlər dövründə yaşı 65-dən yuxarı olanların evdən çıxmağına qoyulmuş qadağalar, habelə onların əsas ehtiyaclarının ödənilməsi ilə bağlı əsasən ailə üzvlərinin dəstəyindən bəhrələnməsi ilə əlaqəlidir. Müdafiə vasitələrinə ehtiyacın olmamasına dair məlumatların regionlar üzrə bölgüsü isə həmçinin kəndlərdə məhdudiyyətlərin nisbi azlığı ilə izah edilə bilər (kəndlərdə yaşayan qadınlar 15.8%-i və kişilərin 17.1%-i, qəsəbələrdə yaşayan qadınların 12.5%-i və kişilərin 10.4%-i, və şəhərlərdə yaşayan qadınların 13.1%-i və kişilərin 11.7%-i).

**Qadınlar pandemiyanın əqli və emosional sağlamlığa mənfi təsiri baxımından daha çox zərərçəkmişlər sırasındadır.**

Ehtimal olunduğu kimi, pandemiyanın əhalinin psixoloji sağlamlığına əhəmiyyətli təsirinin olduğu müəyyən edilmişdir. Qadınlar əqli və emosional sağlamlığa təsir baxımından pandemiyanın mənfi təsirinə məruz qalmış 32.3% respondent arasında çoxluq təşkil edir (kişilərin 26.9%-i və 37.5%-i). Əldə edilmiş məlumatların cins və yaş üzrə bölgüsü qadınlar bütün yaş qrupları üzrə əsas təsirə məruz qaldığını nümayiş etdirir. 35-44 yaş qrupundan olan qadınların bu baxımdan çoxluq təşkil etməsi xüsusi narahatlıq doğuran məsələlərdəndir. Bu yaş qrupundan olan qadınlar fəal işçi qüvvəsini təşkil etməklə yanaşı maliyyə öhdəlikləri də daxil olmaqla ev təsərrüfatının saxlanması, kiçik uşaqlar və yaşlı valideynlərə qayğı və qulluqla bağlı bir çox öhdəliklər daşıyır. Məhz bu səbəblərə görədir ki, bu yaş qrupundan olan qadınlar və kişilər daha çox stresə məruz qalanlar sırasındadır.

## Diaqram 24: Əqli sağlamlığa təsiri




**Pandemiya nəticəsində qadınların səhiyyə xidmətlərinə çıxışı risk altında ola bilər.**

Seçmədən əldə edilmiş məlumatlar göstərir ki, qadınlar pandemiya zamanı tibbi xidmətlərə ehtiyacı olmadığını deyən əhalinin əksəriyyətini təşkil edib (62.4% və 47.8%). Güman etmək olar ki, bu vəziyyət ölkədə icbari sığorta sisteminin hələ də tam şəkildə tətbiq edilməməsi və qadınların daha məhdud maliyyə resurslarına sahib olmasının nəticəsidir, çünki əhali tibbi xidmətlərə müraciət edərkən ortaya çıxan xərcləri əsasən özləri ödəməlidir. Tibbi sığorta ilə əhatə olunmuşların nisbəti çox azdır. COVID-19 pandemiyasının kişi və qadınların iqtisadi resursları və gəlirlərinə təsirini nəzərə alaraq, bu insanların ortaya çıxacaq xərclərə görə tibbi xidmətlərə müraciət etmək ehtimalı olduqca azdır.

Azərbaycanda icbari tibbi sığorta sistemi ancaq yaxın zamanlarda tətbiq olunub və sorğu tibbi sığorta ilə əhatə olunmuşların nisbətinin olduqca az olduğunu təsdiq etmiş oldu. Qadın və kişilərin 22%-nin tibbi sığorta ilə əhatə olunmasına baxmayaraq, bir çox insan (kişilərin 72.2%-i və qadınların 69%-i) hələ də müvafiq şəkildə sığortalanmayıb.

**Tibb xidmətlərinə çıxış zamanı qarşıya çıxan çətinliklərlə bağlı kişilərin nisbəti qadınlardan cüzi şəkildə artıqdır.**

Pandemiya zamanı tibbi xidmətlərə müraciət etmiş respondentlər arasında müəyyən çətinliklərlə üzləşmişlər arasında ciddi gender fərqləri müşahidə edilməyib. Lakin böyük çətinliklərlə üzləşmiş respondentlər arasında kişilərin nisbəti cüzi fərqlə daha çoxdur.

## Diaqram 25: Tibbi sığorta ilə əhatə olunma



## Diaqram 26: Tibbi xidmətlərə çıxış prosesində qarşıya çıxan çətinliklər




**Qadınların böyük əksəriyyəti ginekoloji və mamalıq xidmətlərinə ehtiyacı olmadığını bildirmişdir.**

SGQ-nin nəticələri göstərir ki, reproduktiv yaşda olan qadınların böyük əksəriyyəti (710 nəfər qadının 91%-i) ginekoloji və mamalıq xidmətlərinə ehtiyacı olmadığını bildirmişdir. Bu nəticələr qadınların tibb xidmətlərindən istifadəyə dair verdikləri məlumatlara uyğundur, belə ki, pandemiya nəticəsində iqtisadi resurslar və gəlirlərin azalması fonunda qadınlar ortaya çıxacaq xərcləri nəzərə alaraq bu xidmətlərə müraciət etməkdən çəkinirlər.

Əldə edilmiş nəticələr göstərir ki, qadınların ancaq 6.8%-i ginekoloji xidmətlərə müraciət etmişdir. COVID-19-un qadınların psixoloji vəziyyətinə mənfi təsiri nəticəsində qadınların gələcək sağlamlığını nəzərə alaraq, pandemiya zamanı bu xidmətlərin davamlılığı, fəaliyyəti və münasibliyini təmin etmək olduqca zəruridir.

## Diaqram 27: Cinsi və reproduktiv sağlamlıq xidmətləri və kontraseptivlərə çıxışla bağlı çətinliklər



**Kontraseptivlərə ehtiyacı olmadığına dair məlumat vermiş qadınların sayının hədsiz çox olmasına baxmayaraq, bu vasitələrə ehtiyacı olduğunu bildirən qadınlar onlara çıxış baxımından böyük çətinliklərlə üzləşmişdir.**

Mövcud dəlillərə əsasən Azərbaycanda evli qadınlar arasında müasir qoruyucu vasitələrdən istifadə həldə 14% təşkil edir.[15] Bu göstərici keçmiş sovet respublikaları və Türkiyədə olan faiz nisbətindən xeyli aşağıdır. Keyfiyyət və kəmiyyət əsaslı tədqiqatların nəticələri göstərir ki, elmi şəkildə əsaslandırılmış habelə dəqiq tibbi məlumatlara çıxışın olmaması (həmçinin həmyaşıdlar və ailə üzvlərindən alınan yalnış məlumatlar) kontraseptivlər və onların sağlamlığa təsiri baxımından mövcud olan mifləri daha da təsdiqləmiş olur.[16] COVID-19 yayılandan etibarən qadınların kontraseptivlərdən istifadəsi ilə bağlı da eyni vəziyyət müşahidə olunur. Reproduktiv yaşda olan qadın respondentlərin təqribən 91%- i kontraseptivlərə ehtiyacı olmadığını bildirmişdir. Lakin, kontraseptivlərə ehtiyacı olanların 6.3%-i bu vasitələrə çıxış baxımından böyük çətinliklərlə üzləşmişdir. Güman etmək olar ki, bu çətinliklər COVID-19 yayılandan etibarən əsas tibb resurslarının pandemiya ilə mübarizəyə yönəlməsi nəticəsində baş vermişdir.

Qeyd edilməlidir ki, kontraseptivlərə ehtiyacı olduğuna dair məlumat vermiş qadınların nisbətinin çox az olması tədqiqat heyətinə ailə planlaşdırması xidmətlərindən davamlı istifadə və bu xidmətlərin mövcudluğu və əlçatanlığı baxımından etibarlı nəticələr hasil etməyə imkan vermir. Güman etmək olar ki, sorğunun telefon vasitəsilə aparılması nəticəsində qadınlar verilmiş bir sıra həssas suallara cavab verərkən özlərini rahat hiss etməmişdir.

## Ərzaq məhsullarına çıxış

**Ərzaq məhsullarına çıxışla bağlı ümumilikdə böyük çətinliklər müşahidə olunmasa da, müəyyən çətinliklər baxımından qadınlar, böyük çətinliklər baxımından isə kişilər cüzi fərqlə çoxluq təşkil etmişdir.**

SGQ-nin nəticələrinə əsasən respondentlərin əhəmiyyətli hissəsi (61.9%) ərzaq məhsullarına çıxış/bu məhsulların alınması baxımından heç bir problemlə qarşılaşmayıb. Lakin seçmənin 7.9%-i böyük çətinliklər, 23.7%-i isə müəyyən çətinliklərdən şikayətlənib.Ümumilikdə müəyyən çətinliklərlə üzləşən respondentlər arasında qadınlar (25.5% və 21.8%), böyük çətinliklərlə qarşılaşanlar arasında kişilər (9.1% və 6.7%) nisbətən üstünlük təşkil edib ki, bu da kişilərin xüsusilə də böhran zamanı ev təsərrüfatının ərzaq məhsullarının əsas təminatçısı kimi qəbul edilməsi ilə əlaqədar ola bilər. Qeyd etmək lazımdır ki, ərzaq məhsullarına çıxışla bağlı çətinliklər ərzaq məhsullarının olub-olmamasıdan daha çox COVID-19 pandemiyası zamanı tətbiq edilmiş məhdudlaşdırıcı tədbirlərin (əhalinin hərəkətinin məhdudlaşdırılması, ərzaq dükanlarının erkən bağlanması) nəticəsində baş vermişdir.

**65 yaşdan yuxarı olan əhali ilə müqayisədə daha gənc yaş qruplarından olan qadın və kişilər ərzaq məhsullarına çıxışla bağlı daha az çətinliklə üzləşmişdir.**

SGQ-nin yaş qrupları üzrə əlavə təhlili bəzi uyğunsuzluqları müəyyən edib. 18-64 yaş arası qadın və kişi respondentlər arasında ərzaq məhsullarının əldə edilməsi zamanı çətinliklə üzləşənlər ümumilikdə 32% təşkil etdiyi halda, 65 yaşdan yuxarı respondentlərin isə 24.7%-i çətinliklə üzləşib. Bu dövrdə 65 yaşdan yuxarı şəxslərin yaşayış yerini tərk etməklə bağlı qadağa tətbiq edilməsinə baxmayaraq bu kateqoriyadan olan respondentlərin əksər hissəsi ərzaq məhsulları (66.5%), fərdi tibbi müdafiə vasitələri (51.9%), sanitar gigyenik vasitələr (74.7%), sosial xidmətləri (46.8%) əldə etməklə bağlı əsasən çətinliklə üzləşməmişdir. Bu baxımdan əhəmiyyətli gender fərqləri də müşahidə olunmur. Böyük ehtimalla bu nəticələr müvafiq qurumlar tərəfindən pandemiya başlayandan etibarən yaşlılara dəstək xidmətlərinin tətbiq olunması ilə bağlı ola bilər. Bundan başqa yaşlı əhali qrupları həmçinin geniş ailə üzvlərinin də dəstəyindən faydalanmaq imkanına malikdir.

15-UNFPA (2015) Assessment of the implementation status of treaty body recommendations on sexual and reproductive health and rights in the Republic of Azerbaijan. Baku, Azerbaijan
16-BMTƏF (2015) Saziş qurumlarının cinsi və reproduktiv sağlamlıq və hüquqlar üzrə verdiyi tövsiyələrin Azərbaycan Respublikasında icra statusunun qiymətləndirilməsi. Bakı, Azərbaycan

### İctimai nəqliyyat və su resurslarına çıxış

**İctimai nəqliyyata ehtiyac baxımından qadınlar mənfi təsirə daha az məruz qalıb.**

Orta hesabla, nəqliyyat vasitələrindən istifadəyə ehtiyac duymayan qadınların nisbəti 13% fərqlə üstünlük təşkil edib (qadınların 61.4%-i və kişilərin 48.3%-i). Bu nəticə cari sorğunun qadınların əsasən işini evdən davam etdirməyə vadar edilmiş əhali arasında üstünlük təşkil etdiyi və buna görə də ictimai nəqliyyata daha az ehtiyacı olduğunu təsdiqləyən digər bir nəticə ilə uyğunluq təşkil edir.

**Pandemiyanın qadın və kişilərin su ehtiyatlarına çıxışına təsiri əhəmiyyətsiz dərəcədə olmuşdur.**

Qadın və kişilərin böyük əksəriyyəti pandemiya nəticəsində tətbiq edilmiş məhdudiyyətlərə baxmayaraq su ehtiyatlarına çıxışla bağlı hər hansı bir çətinlik yaşamadığına dair məlumat vermişdir (86.4% və 85.3%). Nəticələr göstərir ki, su ehtiyatlarına çıxışla bağlı çətinliklərlə qarşılaşmış əhali əsasən Aran bölgəsinin kənd ərazilərindən olmuşdur ki, burada son bir neçə il ərzində Kür çayının su ehtiyatlarının idarə edilməsi ilə bağlı bir sıra problemlər baş vermişdir.

## AYRI-SEÇKİLİK VƏ MƏİŞƏT ZORAKILIĞI

### Pandemiya nəticəsində ayrı-seçkilik hallarının artması riskinə dair fikirlər

**Qadınlar ayrı-seçkiliklə bağlı daha çox müşahidələr paylaşmışdır.**

Bütün respondentlərin 10.6%-i COVID-19 yayılandan etibarən ayrı-seçkiliyin hər hansı bir formasının artmasına dair məlumat verib və bu məlumatın cins üzrə bölgüsü kiçik gender fərqlərini müəyyən edib (kişilərin 9.4%-i və qadınların 11.7%-i). Əksər yaş qrupları üzrə qadınlar cüzi fərqlə üstünlük təşkil etmişdir (18-34 yaşlı respondentlərin 10.6%-i və 9.1%-i, 35-44 yaşlı respondentlərin 13.8%-i və 12.9%-i, 45-54 yaşlı respondentlərin 17.1%-i və 8.1%-i, 55-64 yaşlı respondentlərin 10.1%-i və 7.9%-i), 65 yaşdan yuxarı olan respondentlər arasında isə kişilər üstünlük təşkil etmişdir (4.7%-i və 8.2%-i).

Əldə edilmiş məlumatların yaşayış məntəqəsinin növü üzrə bölgüsünə əsasən şəhərlərdən olan qadınlar digər respondentlərlə müqayisədə ayrı-seçkiliyin artmasına dair daha çox məlumat vermişdir. Böyük ehtimalla bu şəhərlərdən olan qadınların daha təhsilli, habelə ayrı-seçkilik və onun müxtəlif formalarına dair məlumat və resurslara dair daha məlumatlı olmasının nəticəsi ola bilər.

Diaqram 28: Respondentlərin ayrı-seçkiliyin hər hansı bir formasının artması ilə bağlı fikirləri



### Cədvəl 11: Respondentlərin ayrı-seçkiliyin hər hansı bir formasının artması ilə bağlı fikirləri, cins və yaşayış yerinin növü üzrə bölgü

| | | Şəhər | Kənd | Cəmi |
|---|---|---|---|---|
| Bəli | Kişi | 6.0% | 3.4% | 9.4% |
| | Qadın | 7.3% | 4.4% | 11.7% |
| Xeyr | Kişi | 51.6% | 30.6% | 82.1% |
| | Qadın | 48.3% | 29.5% | 77.5% |
| Bilmirəm | Kişi | 5.0% | 3.4% | 8.4% |
| | Qadın | 7.5% | 3.2% | 10.7% |

Eyni zamanda qeyd olunmalıdır ki, qadınlar kişilərlə müqayisədə (11% və 8%) buna dair məlumatın olmadığını bildirərərk bu suala cavab verməkdən daha çox çəkinmişdir. Respondentlərin ayrı-seçkiliklə bağlı məlumatın verilməsi ilə bağlı tərəddüd etməsinin bir neçə səbəbi ola bilər. İlk növbədə, bir çox qadınlar bu cür həssas suallara telefon vasitəsilə icra edilən sorğular zamanı cavab verərkən təhlükəsizliklə bağlı müəyyən dərəcədə narahatlıq hissi keçirə bilər. Bununla yanaşı, müəyyən ictimai-mədəni kontekstdə böyümüş bir çox qadınlar müəyyən ayrı-seçkilik münasibətləri/təcrübələrinin ayrı-seçkilik olmadığına inanır.

## Pandemiya nəticəsində məişət zorakılığı riskinə dair fikirlər

Azərbaycanda təqribən hər üç kişidən biri bütün həyatı boyu (32,5%) fiziki zorakılıq hallarını törətdiyini və qadınların demək olar ki, eyni nisbəti (32,1%) bu cür zorakılığa məruz qaldığını bildirib.[17] Mövcud dəlillər göstərir ki, qadınlar və qızlar zorakılığa məruz qalmaq baxımından yüksək risk qrupuna daxil olmaqla yanaşı, zorakı münasibətləri tərk edərək ədalət mühakiməsinə müraciət etmək üçün daha az imkanlar və resurslara malikdir.[18]

Məişət zorakılığı ilə mübarizə üzrə qanun 2010-cu ildə qəbul edilməsinə baxmayaraq, gender əsaslı zorakılığın qarşısının alınması və onunla mübarizə üzrə milli yönləndirmə mexanizmi hələ də yaradılmayıb. Gender əsaslı zorakılığın qarşısının alınması/ona qarşı cavab tədbirlərinin tətbiq edilməsi məqsədilə çoxtərəfli əməkdaşlıq və əlaqələndirmə çərçivələrinin çatışmazlığı və müvafiq milli potensialın azlığı xüsusilə erkən yaşda ailə qurmuş, münaqişə və miqrasiyaya məruz qalmış, təhsil və maliyyə resurslarına malik olmayan yüzlərlə qadını zorakılıq qarşısında aciz qoymuş olur. Yuxarıda qeyd olunanları, yerli vətəndaş cəmiyyəti təşkilatlarının məlumatlarını, həmçinin pandemiya zamanı insanların evə qapanması nəticəsində gender əsaslı zorakılığın artmasına dair olan qlobal dəlilləri nəzərə alaraq,[19] cari sorğunun məqsədlərindən biri də COVİD-19-un qarşısını almaq üçün hökumət tərəfindən tətbiq edilmiş məhdudiyyətlər nəticəsində əhalinin məişət zorakılığının artmasına dair münasibətlərini müəyyən etməkdən ibarət idi.

17- BMTƏF/AQUPDK (2018) Azərbaycanda gender bərabırliyi və gender münasibətləri: mövcud vəziyyət və imkanlar. Kişilərin gender bərabərliyininə münasibətinə dair tədqiqatın (IMAGES) nəticələri. Bakı, Azərbaycan
18- BMTƏF/AQUPDK (2018) Azərbaycanda qadınlara qarşı zorakılığın iqtisadi yükü (nəşrə hazırlanır)
19- BMTƏF (2020) Coronavirus xəstəliyi (COVID-19) Hazırlıq və cavab tədbirləri – BMT-nin Əhali Fondunun texniki arayışları. Aşağıdakı link üzrə əldə edilə bilər: https://www.unfpa.org/sites/default/files/resource-pdf/COVID- 19_Preparedness_and_Response-UNFPA_Interim_Technical_Briefs_Gender_Equality_and_GBV_23_March_2020_.pdf (son baxış tarixi - 07.07.2020)

**COVID-19-la əlaqədar tətbiq edilmiş məhdudiyyətlər nəticəsində ev təsərrüfatı gəlirlərinin azalması və pandemiyanın əhalinin psixoloji sağlamlığına mənfi təsirinin ailədaxili gərginlik və zorakılıq hallarına zəmin yaratması ehtimalı yüksəkdir.**

SGQ-nin nəticələrinə əsasən bütün respondentlərin 9.5%-i (kişilərin 9.4%- i və qadınların 9.7%-i) COVID-19 yayılandan etibarən məişət zorakılığının artdığına dair məlumat eşitdiyini/bunu hiss etdiyini bildirmişdir. Bu məlumatların cins və yaş ürzə bölgüsü ciddi gender fərqlərini müəyyən etməmişdir. Məlumatların yaşayış məntəqəsinin növü üzrə bölgüsü də ciddi gender fərqlərini müəyyən etməsə də, şəhərlərdən olan kişilər pandemiya başlayandan etibarən məişət zorakılığına dair məlumat eşitdiyini etiraf etməyə daha çox meylli olmuşdur (şəhərdə yaşayan kişilərin 7.5%-i və kəndlərdə yaşayan kişilərin 5.1%-i).

Məişət zorakılığının artdığını bildirən respondentlərin rəylərinə əsasən zorakılığa məruz qalanların böyük əksəriyyətini qadınlar təşkil edir (83%) və bu baxımdan ciddi gender fərqləri müşahidə olunmur. Bununla yanaşı, "Bilmirəm" cavabı vermiş respondentlərin 7%-i bunu aşağıdakı kimi əsaslandırmışdır: "Karantin şərtlərinə görə evdən kənara çox çıxmadığımıza görə ətrafımızda baş verənlərdən o qədər də məlumatlı deyilik."

Maraqlıdır ki, bu cavabı vermiş respondentlər arasında yaşlı əhali çoxluq təşkil edir və bu əsasən yaşı 65-dən yuxarı olan insanların xüsusi karantin rejimi dövründə evdən çıxmamaq qadağası altında olmaqları ilə izah oluna bilər.

Qeyd etmək lazımdır ki, əhalinin məişət zorakılığı ilə bağlı verdiyi məlumata xüsusi ehtiyatla yanaşmaq lazımdır, çünki telefonla icra edilmiş sorğular zamanı məişət zorakılığı ilə bağlı verilmiş birbaşa sualları cavablandırarkən məlumatın tam açılması baxımından müəyyən məhdudiyyətlər ola bilər. Sosial Tədqiqatlar Mərkəzinin keçirdiyi digər bir sorğunun nəticələrinə əsasən hər dörd qadından biri (27.1%) karantin rejiminin ailədaxili münasibətlərə mənfi təsir etdiyini bildirib (kişilər üçün bu rəqəm 22.5% təşkil edib).[20] Bu nəticələr COVID-19 pandemiyasının ev təsərrüfatının gəlirləri və qadın və kişilərin psixoloji vəziyyətinə mənfi təsirinin istər cari böhran, istərsə də ondan sonrakı dövrdə ailədaxili münaqişələr və zorakılığa səbəb ola biləcəyini ehtimal etməyə əsas verir.

## Cədvəl 12: COVID-19 yayılandan etibarən məişət zorakılığı hallarının artmasını hiss etmisinizmi/eşitmisinizmi?

| | | 18-34 | 35-44 | 45-54 | 55-64 | 65+ | CƏMİ |
|---|---|---|---|---|---|---|---|
| Bəli | Kişi | 8.3% | 12.2% | 11.3% | 7.9% | 6.8% | 9.4% |
| | Qadın | 10.6% | 10.6% | 9.3% | 7.0% | 9.4% | 9.7% |
| Xeyr | Kişi | 88.3% | 77.6% | 81.5% | 83.5% | 78.1% | 83.1% |
| | Qadın | 84.8% | 81.9% | 83.6% | 82.9% | 80.0% | 83.1% |
| Bilmirəm | Kişi | 3.4% | 10.2% | 7.3% | 7.9% | 12.3% | 7.1% |
| | Qadın | 4.6% | 7.5% | 7.1% | 10.1% | 10.6% | 7.2% |

20- Sosial Tədqiqatlar Mərkəzi (2020)
Hökumətin COVİD-19-la mübarizə üzrə böhran əleyhinə siyasəti (nəşrə hazırlanır)

## Məişət zorakılığı ilə bağlı müdafiə vasitələrindən istifadə

**Qadınların böyük bir qismi məişət zorakılığı baş verdiyi təqdirdə hara müraciət edəcəyi ilə bağlı məlumata malik deyil.**

Məişət zorakılığı ilə mübarizə üzrə qanunun 2010-cu ildə qəbul edilməsinə baxmayaraq, əhali arasında müvafiq müdafiə vasitələrinə dair ümumi məlumat çatışmazlığı var. Məişət zorakılı ilə bağlı mövcud müdafiə mexanizmlərinə dair məlumatı olmayan qadınlarla kişilərin nisbəti arasında ciddi fərqlər müşahidə olunur (qadınların 43.4%-i və kişilərin 33.5%-i). Zorakılıq baş verəcəyi təqdirdə hara müraciət etməklə bağlı verilmiş suala "Bilmirəm" cavabı vermis qadınların nisbəti daha çox idi. COVİD-19 pandemiyası nəticəsində tətbiq edilmiş məhdudiyyətləri də nəzərə alaraq qadınların mövcud dəstək xidmətləri ilə bağlı məlumatlara malik olmaması ciddi narahatlıq doğuran məsələlərdəndir və bu sahədə təcili müdaxilə tədbirlərinə ehtiyac var.

**65 yaşdan yuxarı əhali qrupları 18-64 yaşlı şəxslərlə müqayisədə məişət zorakılığı ilə bağlı müdafiə vasitələri haqqında daha az məlumatlara malikdir.**

65 yaşdan yuxarı insanların bu haqda məlumatlılığının aşağı olması (18-64 yaşında olan 51.7%-lə müqayisədə 41.1%) onlara qarşı baş verə biləcək zorakılıq halları zamanı müraciət edə biləcəkləri yer olmadığından buna dözməli olmasına səbəb ola bilər. Eyni zamanda 65 yaşdan yuxarı şəxslər əsasən pensiya yaşında olduğu üçün sosial aktivliyi nisbətən azalır və bu yaş qrupunun internet və digər müasir texnologiya vasitələrindən istifadə bacarıqları da nisbətən zəif olur. Bu da onların məlumat əldə etmə imkanlarını məhdudlaşdırmış olur.

Diaqram 29: Məişət zorakılığı baş verdikdə hara müraciət edəcəklərini bilməyən qadın və kişilərin nisbəti, yaş qrupu üzrə



# NƏTİCƏ VƏ TÖVSİYƏLƏR

**Sürətli Gender Qiymətləndirməsinin nəticələrinə əsasən COVID-19 pandemiyasının bütün təsirləri ilə yanaşı, böhranla mübarizə üzrə hökumət tərəfindən tətbiq edilmiş cavab tədbirləri və məhdudiyyətlər əhaliyə mənfi təsirsiz ötüşməyib və bu zaman bir sıra gender fərqləri müşahidə olunmuşdur. Belə olan halda iqtisadi resurslara çıxış, ev təsərrüfatı işləri və qayğı öhdəliklərinin əlavə yükü, sağlamlığa təsir, habelə, məişət zorakılığı ilə mübarizə mexanizmlərinə çıxış baxımından qadınların vəziyyəti xüsusi narahatlıq doğuran məsələlər sırasındandır. Güman etmək olar ki, pandemiyanın ölkədə bir sıra sahələrdə mövcud olan ənənəvi gender rollarının bölgüsünü daha da dərinləşdirməsi gender bərabərliyi üzrə normativ çərçivələrdə əks olunmuş bir sıra müddəanın icrası üzrə əldə edilmiş nailiyyətlərə kölgə salmış olacaq.**

**Beləliklə də, hökumət tərəfindən pandemiya ilə mübarizə üzrə tətbiq olunan qısa, orta, və uzunmüddətli siyasət və müdafiə mexanizmlərinin gender aspektini nəzərə alaraq tərtib edilməsi, habelə mavafiq bərpa və cavab tədbirləri əsnasında qadınların maraqlarını təmin etmək olduqca zəruridir. Bunu nəzərə alaraq, hökumət, Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış agentlikləri, beynəlxalq inkişaf təşkilatları və vətəndaş cəmiyyəti təşkilatlarının diqqətinə çatdırılmaq üçün aidiyyəti məsələlər üzrə bir sıra tövsiyələr hazırlanmışdır.**

• Hökumət COVID-19-la mübarizə və aidiyyəti cavab tədbirlərinin hazırlanması və icrası prosesində cari qiymətləndirmənin nəticələrindən istifadə etməli və pandemiyanın qadın və kişilərə olan fərqli təsirinə xüsusi diqqət verməlidir. Nazirlər Kabineti yanında COVID-19-un qarşısının alınması və onunla mübarizə məqsədilə yaradılmış Operativ Qərargahın fəaliyyəti də daxil olmaqla bütün aidiyyəti planlaşdırma və qərar qəbuletmə proseslərində qadınların liderliyi və tam iştirakı təmin edilməlidir.

• Hökumət COVID-19-la bağlı məlumatlar və xəbərlərin televiziya da daxil olmaqla əhali tərəfindən ən çox istifadə olunan mənbələr vasitəsilə yayılmasına üstünlük verməlidir. Bununla yanaşı, qadınlar və yaşlı əhalinin İKT bacarıqları və İKT texnologiyalarından istifadəsinin təkmilləşdirilməsi üzrə tədbirlər görülməlidir.

• Hökumət xüsusilə COVID-19-un daha çox mənfi təsirinə məruz qalmış sahələr üzrə cins əsasında təsnifləndirilmiş məlumatın toplanmasını təmin etməli və bu məlumatları bütün səviyyələrdə tətbiq olunacaq böhranla mübarizə, bərpa və cavab tədbirləri prosesində istifadə etməlidir.

• Əhalinin qarşılaşdığı maliyyə problemlərinin azaldılması məqsədilə tətbiq olunacaq bütün iqtisadi siyasət və maliyyələşdirmə mexanizmlərinin əsaslı və sahələrarası gender təhlili keçirilməlidir. Qeyri-formal məşğulluq sahəsinə xüsusi diqqət yetirməklə iqtisadi təhlükəsizlik və dəstək şəbəkələri yaradılmalıdır. Pandemiya nəticəsində fəaliyyətini tamamilə dayandırmış biznes müəssisələrinin böyük əksəriyyətinin qadınlara aid olduğunu nəzərə alaraq, bu baxımdan əlavə dəstək tədbirlərinin icra edilməsinə ehtiyac var.

• Böhran nəticəsində qadınların tipik iş yerinin daha çox dəyişikliklərə məruz qalması və onların ev işləri və uşaqlara/ahıl ailə üzvlərinə qayğı işləri üzrə yükünün qeyri-mütənasib şəkildə artmasını nəzərə alaraq, qadınların məşğulluğunun davamlılığının təmin edilməsinə dair xüsusi tədbirlər həyata keçirilməlidir. Bundan başqa, ödənilməyən ev və qayğı işlərinin əsas yükünün qadınların üzərində olmasını nəzərə alaraq, tətbiq edilən istənilən həll qadınlar və kişilər üçün gender bərabərliyini təmin etməyə yönəlmiş çevik məşğulluq tənzimləmələrindən ibarət olmalıdır.

• Pandemiya nəticəsində tətbiq edilmiş bir sıra cavab tədbirlərinin (əsasən qadınların məzuniyyətə göndərilməsi və s.) mövcud gender stereotiplərinin daha da dərinləşməsi riskini yaratmağına baxmayaraq, kişilər də məhdud şəkildə olsa da müəyyən ev işlərinin görülməsində iştirak edib. Bundan ənənəvi gender münasibətləri dinamikasını dəyişmək , qadın və kişilərin, işləri, uşağa qayğı məsələlərində bərabər iştirakını təşviq etmək üçün bir fürsət kimi istifadə edərək gender cəhətdən bərabər iş tənzimləmələri, atalar və analar üçün ödənişli atalıq və analıq məzuniyyətləri tətbiq edilməlidir.

• Pandemiyanın xüsusilə qadınların psixoloji sağlamlığına mənfi təsirini nəzərə alaraq, müvafiq dəstək xidmətlərinin mövcudluğu, əlçatanlığı və münasibliyi təmin edilməlidir. Bu xidmətlərə dair məlumat əhali arasında geniş şəkildə yayılmalıdır.

• Əhalinin ailə planlaşdırması və digər zəruri cinsi və reproduktiv sağlamlıq xidmətlərinə çıxışını təmin və təşviq etmək üçün Azərbaycanda hazırda tətbiq olunmağa başlamış icbari tibbi sığortada nəzərdə tutulmuş səhiyyə xidməti paketi cinsi və reproduktiv sağlamlıqla bağlı müddəaları da özündə əks etdirməlidir.

• Ümumilikdə əhalinin, xüsusilə də qadınlar və yaşlı əhali qruplarının məişət zorakılığı ilə bağlı mübarizə vasitələrinə dair məlumat azlığını nəzərə alaraq, zorakılıqla mübarizə üzrə mövcud mexanizmlər haqqında məlumatların əhali arasında geniş şəkildə yayılmağı üçün xüsusi tədbirlər həyata keçirilməlidir.

• Hökumət, zorakılıqla mübarizə xidmətlərinin davamlılığını təmin etmək üçün sahələrarası yönləndirmə sisteminin əlaqələndirilməsini təmin etməli, habelə, gender əsaslı zorakılığın qarşısının alınması və onunla mübarizə üzrə Milli Fəaliyyət Planının təsdiqlənməsi prosesini sürətləndirməlidir ki, mövcud dəstək və sığınma xidmətlərinin əhatəsini genişləndirmək mümkün olsun. Gender əsaslı zorakılığın qurbanlarının onların ehtiyacı olduğu xidmətlərlə əlaqələndirilməsi məqsədilə əlavə giriş nöqtələri/kanalları müəyyən edilməlidir.

• Əhalinin hərəkətinə dair məhdudiyyətlər tətbiq olunarkən dəstək və sığınacaq axtarışında olan gender əsaslı zorakılıq qurbanlarının ehtiyacları xüsusilə nəzərə alınmalıdır. Hökumət həmçinin təcili surətdə gender əsaslı zorakılığın qurbanları üçün 24/7 ərzində fəaliyyət göstərəcək vahid milli dəstək xəttini təmin etməlidir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


***Nazirlər Kabinetinin Azərbaycanda COVID-19-a dair məlumatı. Aşağıdakı link üzrə əldə edilə bilər:*** https://cabmin.gov.az/az/category/10/

***GIZ Azərbaycan (2016) Qadın sahibkarlığı üzrə siyasətin qiymətləndirilməsi və qadın sahibkarlığı üzrə tərəfdaşlarla keçirilmiş sorğu. Aşağıdakı link üzrə əldə edilə bilər:*** https://psd-tvet.de/wp/wp-content/uploads/AZ_GIZ-Women- Enrepreneurship.pdf

***BMTƏF (2015) Saziş qurumlarının cinsi və reproduktiv sağlamlıq və hüquqlar üzrə verdiyi tövsiyələrin Azərbaycan Respublikasında icra statusunun qiymətləndirilməsi.*** Bakı, Azərbaycan

***BMTƏF/AQUPDK (2018) Azərbaycanda qadınlara qarşı zorakılığın iqtisadi yükü (nəşrə hazırlanır)***

***BMTƏF/BMTİP (2015) Əhalinin vəziyyətinin qiymətləndirilməsi: Azərbaycanda demoqrafik keçiddən sonrakı dövr.*** Bakı, Azərbaycan

***Sosial Tədqiqatlar Mərkəzi (2020) Hökumətin pandemiya ilə mübarizədə dövlətin anti-böhran siyasəti ictimai rəydə***

***BMTİP/BMTƏF (2018) Azərbaycanda özəl sektorda qadınlar: inkanlar və çətinliklər. Gender qiymətləndirilməsi hesabatı.*** Bakı, Azərbaycan

***BMTƏF/AQUPDK (2018) Azərbaycanda gender bərabərliyi və gender münasibətləri: mövcud vəziyyət və imkanlar. Kişilərin gender bərabərliyinə münasibətinə dair tədqiqatın (IMAGES) nəticələri.*** Bakı, Azərbaycan

***BMTƏF (2020) Koronavirus xəstəliyi (COVID-19) Hazırlıq və cavab tədbirləri – BMT-nin Əhali Fondunun texniki arayışları. Aşağıdakı link üzrə əldə edilə bilər:*** https://www.unfpa.org/sites/default/files/resource-pdf/COVID- 19_Preparedness_and_Response- UNFPA_Interim_Technical_Briefs_Gender_Equality_and_GBV_23_-March_20 20_.pdf

***DSK (2019) Əmək bazarı, Statistik illik məcmuə.*** Bakı, Azərbaycan

# ƏLAVƏ 1: SORĞU VƏRƏQİ

"Bu sorğu anketini doldurmağa razılıq verdiyiniz üçün sizə təşəkkür edirik! COVİD-19 virusu gözlənilmədən dünyaya sürətlə yayıldı və biz - BMT Qadın və BMT-nin Əhali Fondu olaraq, COVİD-19 virusuna qarşı hazırlıq və cavab tədbirlərində gender aspektlərinin adekvat şəkildə nəzərə alınmasını təmin etmək üçün göstərilən səylərə dəstək vermək məqsədilə, dəyişən vəziyyətin qadınlara və kişilərə necə təsir etdiyini öyrənməyə çalışırıq. Bu sorğu anketinin doldurulması maksimum 15 dəqiqə vaxt tələb edir. Bütün cavablar son dərəcədə məxfilik şəraitində saxlanılacaq. Vaxtınızı və fikirlərinizi bölüşməyə razılaşdığınız üçün təşəkkür edirik!"

## DEMOQRAFİK XÜSUSİYYƏTLƏR

### Q1. Cins (MƏCBURİ)
*[Zəhmət olmasa, birini seçin, sonra NÖVBƏTİ düyməsini sıxın]*
1. Kişi
2. Qadın
3. Digər - (KÖNÜLLÜ)

### Q2. Neçə yaşınız var?
(MƏCBURİ)
*[Zəhmət olmasa, yaşınızı illə göstərin]*
_ _ [YAŞ]

### Q3. Ailə vəziyyətiniz (MƏCBURİ)
*[Zəhmət olmasa, birini seçin, sonra NÖVBƏTİ düyməsini sıxın]*
1. Subay
2. Evli
3. Mülki nikahda/Birgə yaşayır
4. Evli, lakin ayrılmış
5. Dul
6. Boşanmış

### Q4. Aldığınız ən yüksək təhsil səviyyəsi hansıdır? (MƏCBURİ)
*[Zəhmət olmasa, birini seçin, sonra NÖVBƏTİ düyməsini sıxın]*
1. Təhsilsiz
2. İbtidai
3. Tam Orta
4. Ali təhsil və ya ekvivalenti
5. Natamam orta
6. Kollec

### Q6. Harada yaşayırsınız? (MƏCBURİ)

### Q7. Sizinlə birlikdə neçə nəfər yaşayır? (MƏCBURİ)
*[Zəhmət olmasa, birini seçin, sonra NÖVBƏTİ düyməsini sıxın]*
0. Tək yaşayıram
1. 9-17 yaşlı uşaqların sayı
2. 18-64 yaşlı böyüklərin sayı _
3. 65+ yaşlı ahıl şəxslərin sayı __

*[Aşağı açılan menyu] NÖVBƏTİ*

## ƏSAS MƏLUMAT MƏNBƏYİ

### Q8. COVİD-19 virusu ilə bağlı məlumatları (risklər, tövsiyə olunan qabaqlayıcı tədbirlər, mübarizə strategiyaları) aldığınız əsas mənbə hansıdır? (MƏCBURİ)

*[Zəhmət olmasa, birini seçin, sonra NÖVBƏTİ düyməsini sıxın]*

1. İnternet və sosial media (Facebook, İnstaqram və s.)
2. Rəsmi hökumət veb-saytları
3. Radio/Televiziya/Qəzet
4. Dövlət xidmətlərinin elanları/səsgücləndirici
5. Telefon (telegram, viber, whatsapp və ya zəng)
6. İcma, o cümlədən ailə və dostlar
7. Tibb mərkəzi/Ailə həkimi
8. QHT/Vətəndaş cəmiyyəti təşkilatı
9. Digər
10. COVID19 haqqında heç nə bilmirəm Q9 SUALINA KEÇ

### Q8.1 Aldığınız məlumatları necə qiymətləndirərdiniz? (MƏCBURİ)

*[Zəhmət olmasa, birini seçin, sonra NÖVBƏTİ düyməsini sıxın]*

1. Aldığım məlumat məni qane etmədi
2. Aydın idi və mənim üçün faydalı oldu
3. Aydın idi, lakin çox gec aldığımdan mənim üçün faydalı olmadı
4. Qarışıq/ziddiyyətli idi

## MƏŞĞULLUQ VƏ GƏLİR MƏNBƏLƏRİ

### Q9. COVİD-19 yayılmazdan öncə adi bir həftədə məşğulluq vəziyyətinizi ən yaxşı necə təsvir edərdiniz? (MƏCBURİ)

*[Zəhmət olmasa, birini seçin]*

1. Mən bir şəxs/şirkət/təşkilatın işçisi idim Q 9.1 SUALINA KEÇ
2. Mənim öz biznesim var idi/özünüməşğul idim və başqa işçilərim var idi Q 9.1 SUALINA KEÇ
3. Mənim öz biznesim var idi/özünüməşğul idim, lakin başqa işçilərim yox idi Q 9.1 SUALINA KEÇ
4. Ailə biznesinə kömək edirdim (Ödənişsiz əsaslarda) Q10 SUALINA KEÇ
5. Mən işləmirdim və iş axtarmırdım, işləmək imkanım yox idi Q10 SUALINA KEÇ
6. Mən işləmirdim, lakin iş axtarıram, işləməyə başlamaq imkanım var Q10 SUALINA KEÇ
7. Təqaüdə çıxmışam, pensiyaçıyam Q10 SUALINA KEÇ
8. İşləmirdim, çünki əyani təhsil alıram Q10 SUALINA KEÇ
9. Uzunmüddətli xroniki xəstəliyim, xəsarətim, əlilliyim var Q10 SUALINA KEÇ
10. Digər, göstərin   Q10 SUALINA KEÇ

### Q 9.1. COVİD-19 yayılandan etibarən, ödənişli işə sərf etdiyiniz saatların sayı dəyişibmi? (MƏCBURİ)

*[Zəhmət olmasa, birini seçin]*

1. Artıb
2. Dəyişməyib/Eyni qalıb
3. Azalıb, lakin işimi itirmədim
4. İşimi itirdim Q10 SUALINA KEÇ
5. Bilmirəm

Q 9.2 COVİD-19 yayılandan etibarən, məzuniyyətə göndərilmisinizmi? (MƏCBURİ)
*[Zəhmət olmasa, birini seçin]*

1. Bəli, tam ödənişli məzuniyyət
2. Bəli, qismən ödənişli məzuniyyət
3. Bəli, ödənişsiz məzuniyyət
4. Xeyr, məzuniyyət götürmədim
5. Məzuniyyət hüququm yoxdur/mənə şamil edilmir
6. Bilmirəm

Q 9.3. İşəgötürəniniz sizin üçün pensiya/sosial sığorta haqlarını ödəyirmi? (MƏCBURİ)
*[Zəhmət olmasa, birini seçin, sonra NÖVBƏTİ düyməsini sıxın]*
1. Bəli
2. Xeyr
3. Bilmirəm.

Q 9.4 COVİD-19 yayılandan etibarən, tipik iş yerinizdə hər hansı dəyişikliklər olubmu? (KÖNÜLLÜ)
*[Zəhmət olmasa, birini seçin]*
1. Bəli, mən evdən kənarda işləyirdim, indi isə öz evimdən işləyirəm
2. Xeyr, mən evdən kənarda işləyirdim, indi də işə gedirəm
3. Xeyr, əvvəllər olduğu kimi, indi də evimdən işləyirəm

Q 9.5 Koronavirus səbəbilə ən azı iki həftə işləyə bilməmisinizsə, bu, sizin gəlirlərinizə necə təsir edib? (KÖNÜLLÜ)
*[Zəhmət olmasa, birini seçin, sonra NÖVBƏTİ düyməsini sıxın]*
1. Tam əmək haqqı almağa davam edərdim
2. Qismən əmək haqqı almağa davam edərdim
3. Yəqin ki, əmək haqqı almazdım
4. Bilmirəm

Q 9.6 Biznesiniz rəsmi qeydiyyata alınıbmı? (KÖNÜLLÜ)
*[Zəhmət olmasa, birini seçin, sonra NÖVBƏTİ düyməsini sıxın]*
1. Bəli
2. Xeyr
4. Bilmirəm

Q 9.7 COVİD-19 virusunun yayılması biznesinizə necə təsir edib? (MƏCBURİ)
*[Zəhmət olmasa, birini seçin]*
1. Dəyişiklik yoxdur
2. Artıb/Həcmi böyüyüb
3. Azalıb/Həcmi kiçilib
4. Tamamilə dayanıb
5. Bilmirəm

Q10. Hal-hazırda hər hansı tibbi sığorta ilə əhatə olunursunuzmu? (MƏCBURİ)
*[Zəhmət olmasa, birini seçin, sonra NÖVBƏTİ düyməsini sıxın*]
1. Tibbi sığorta ilə əhatə olunuram
2. Tibbi sığorta ilə əhatə olunmuram
3. Bilmirəm

**Q11. COVİD-19 yayılandan etibarən, Hökumətdən, yerli bələdiyyələrdən hər hansı işsizlik müavinətləri və/yaxud maliyyə yardımı alırsınızmı? (MƏCBURİ)**
*[Zəhmət olmasa, birini seçin, sonra NÖVBƏTİ düyməsini sıxın]*
1. Bəli
2. Xeyr
3. Bilmirəm

**Q12. COVİD-19 yayılandan etibarən, Hökumətdən və/yaxud yerli bələdiyyələrdən natura formasında (ərzaq, vasitələr və s.) yardım alırsınızmı? (bir neçə cavab seçilə bilər) (MƏCBURİ)**
1. Bəli, ərzaq
2. Bəli, profilaktik vasitələr (əlcək, maska, antiseptik vasitə və s.)
3. Bəli, şəxsi gigiyena vasitələri (menstrual məhsullar, körpə bezləri və s.)
4. Xeyr
5. Bilmirəm

**Q12.1 Qeyri-hökumət təşkilatı/vətəndaş cəmiyyəti təşkilatı və ya digər qeyri-kommersiya təşkilatlarından natura formasında hər hansı yardım alırsınızmı? (bir neçə cavab seçilə bilər) (KÖNÜLLÜ)**
1. Bəli, ərzaq
2. Bəli, profilaktik vasitələr (əlcək, maska, antiseptik vasitə və s.)
3. Bəli, şəxsi gigiyena vasitələri (menstrual məhsullar, körpə bezləri və s.)
4. Xeyr
5. Bilmirəm

**Q13. COVİD-19 virusunun yayılması aşağıdakı ŞƏXSİ resurslara necə təsir göstərib? (MƏCBURİ)**

| | Zəhmət olmasa müvafiq xanada √ qoyun | | | |
|---|---|---|---|---|
| | Artıb | Dəyişiklik yoxdur | Azalıb | Bu mənə aid deyil |
| 1. Təsərrüfatdan əldə olunan gəlirlər/qazanclar | | | | |
| 2. Şəxsi biznesdən/ailə biznesindən, özünüməşğulluq fəaliyyətindən əldə olunan gəlirlər/qazanclar | | | | |
| 3. Ödənişli işdən əldə olunan gəlirlər/qazanclar | | | | |
| 4. Əmlakdan, investisiyalardan və ya əmanətlərdən əldə olunan gəlirlər - (KÖNÜLLÜ) | | | | |
| 5. Pensiya, digər sosial ödənişlər | | | | |
| 6. Əkinçilikdən, heyvandarlıqdan və ya balıqçılıqdan əldə olunan qida | | | | |
| 7. Xaricdə yaşayan şəxslərdən qəbul edilən pul və ya mallar | | | | |
| 8. Ölkədəki ailə üzvləri/dostların yardımı (pul, ərzaq və s.) | | | | |
| 9. Dövlət dəstəyi | | | | |
| 10.QHT-lərin və ya digər təşkilatların dəstəyi/xeyriyyə | | | | |

## MƏİŞƏT IŞLƏRİNİN BÖLGÜSÜ

### Q14. COVİD-19 nəticəsində, aşağıdakı işlərə sərf olunan saatların sayı dəyişibmi? (MƏCBURİ)

| | Zəhmət olmasa müvafiq xanada √ qoyun | | | |
|---|---|---|---|---|
| | Adətən mən etmirəm | Artıb | Dəyişməyib | Azalıb |
| 1. Yeməkləri bişirmək və servis etmək | | | | |
| 2. Öz yaşayış sahəmizin və ətrafımızın təmizlənməsi və saxlanması (məsələn, paltarlar, ev təsərrüfatı) | | | | |
| 3. Ev təsərrüfatının idarə edilməsi (məsələn, kommunal ödənişlərin edilməsi) | | | | |
| 4. Ailə/ev təsərrüfatı üzvü üçün bazarlıq etmək | | | | |
| 5. Su/odun/yanacaq toplamaq | | | | |
| 6. Uşaqlarla oynamaq, danışmaq və oxumaq | | | | |
| 7. Uşaqları öyrətmək, tapşırıq vermək, dərs keçmək | | | | |
| 8. Uşaqlara qayğı göstərmək, o cümlədən qidalandırmaq, təmizləmək, fiziki qulluq | | | | |
| 9. Ahıl yaşlı/xəstə/əlilliyi olan böyüklərə tibbi qayğı, yemək, təmizlik, fiziki qulluğu təmin etmək | | | | |
| 10. Ailənin yetkinlik yaşına çatmış üzvlərinə mənəvi-emosional dəstək vermək | | | | |
| 11. Ev heyvanına baxma | | | | |

### Q15. COVİD-19 yayılandan etibarən, ən çox vaxtı nəyə sərf edirsiniz? (MƏCBURİ)

*[Zəhmət olmasa, birini seçin, sonra NÖVBƏTİ düyməsini sıxın]*

1. Yeməkləri bişirmək və servis etmək
2. Öz yaşayış sahəmizin və ətrafımızın təmizlənməsi və saxlanması (məsələn, paltarlar, ev təsərrüfatı)
3. Ev təsərrüfatının idarə edilməsi (məsələn, kommunal ödənişlərin edilməsi)
4. Ailə/ev təsərrüfatı üzvü üçün bazarlıq etmək
5. Su/odun/yanacaq toplamaq
6. Uşaqlarla oynamaq, danışmaq və oxumaq
7. Uşaqları öyrətmək, tapşırıq vermək, dərs keçmək
8. Uşaqlara qayğı göstərmək, o cümlədən qidalandırmaq, təmizləmək, fiziki qulluq
9. Ahıl yaşlı/xəstə/əlilliyi olan böyüklərə tibbi qayğı, yemək, təmizlik, fiziki qulluğu təmin etmək
10. Ailənin yetkinlik yaşına çatmış üzvlərinə mənəvi-emosional dəstək vermək
11. Ev heyvanına baxmaq

## Q16. COVİD-19 yayılandan etibarən, ev təsərrüfatındakı vəzifə və öhdəliklərdə dəyişiklik olubmu? (MƏCBURİ)

| | Zəhmət olmasa müvafiq xanada √ qoyun | | |
|---|---|---|---|
| | Bəli | Xeyr | Şamil edilmir |
| 1.Həyat yoldaşım ev işlərində və/yaxud ailəyə qayğı məsələlərində mənə daha çox kömək edir | | | |
| 2.Qızım (qızlarım) ev işlərində və/yaxud ailəyə qayğı məsələlərində mənə daha çox kömək edir | | | |
| 3.Oğlum (oğullarım) ev işlərində və/yaxud ailəyə qayğı məsələlərində mənə daha çox kömək edir | | | |
| 4.Ailənin/ev təsərrüfatının digər üzvləri ev işlərində və/yaxud ailəyə qayğı məsələlərində mənə daha çox kömək edir | | | |
| 5.Ev qulluqçusu/dayə/tibb bacısı işə götürmüşəm | | | |
| 6.Ev qulluqçusu/dayə/tibb bacısı indi bizdə daha uzun müddət (saat sayı baxımından) işləyir | | | |
| 7.Ev qulluqçusu/dayə/tibb bacısı artıq bizdə işləmir | | | |
| 8.Mən hər şeyi özüm edirəm, heç kəs mənə ev işləri və ailəyə qayğı məsələlərində kömək edə bilmir | | | |

## Q17. COVİD-19 nəticəsində aşağıdakılardan hər hansı biri ilə şəxsən üzləşmisinizmi: (MƏCBURİ)

| | Zəhmət olmasa müvafiq xanada √ qoyun | | |
|---|---|---|---|
| | Bəli | Xeyr | Aid deyil |
| 1. Fiziki xəstəlik | | | |
| 2. Ailə/ev təsərrüfatı üzvünün xəstələnməsi | | | |
| 3. Ailə/ev təsərrüfatı üzvünün ölümü | | | |
| 4. Psixoloji/psixi/emosional sağlamlığım mənfi təsirə məruz qalıb (məsələn, stress, təlaş və s.) | | | |
| 5. Eyni ölkə daxilində başqa bir coğrafi əraziyə köçüb/yer dəyişikliyi edib | | | |
| 6. Bu yaxınlarda xarici ölkədən qayıtmışam | | | |
| 7. Uşaqların məktəb dərsləri dayandırılıb və ya azaldılıb (KÖNÜLLÜ) | | | |

## Q18. COVİD-19 nəticəsində əsas xidmətlərdən istifadə baxımından şəxsən çətinliklərlə üzləşmisinizmi: (MƏCBURİ)

| | Zəhmət olmasa müvafiq xanada √ qoyun | | | |
|---|---|---|---|---|
| | Böyük çətinliklər | Müəyyən çətinliklər | Xeyr | Ehtiyac olmayıb |
| 1. Ərzaq məhsulları/təminatı | | | | |
| 2. Fərdi tibbi müdafiə vasitələri (maskalar, əlcəklər və .s) | | | | |
| 3. Özüm və/yaxud ailə üzvüm üçün tibbi xidmətlər/yardım | | | | |
| 4. Sanitar-gigiyenik məhsullar (sabun, su, müalicə həbləri, menstrual məhsullar) | | | | |
| 5. İctimai nəqliyyat | | | | |
| 6. Su təchizatı | | | | |
| 7. Özüm və/yaxud ailə üzvüm üçün sosial xidmətlər/yardım | | | | |

## Q19. COVİD-19 virusunun yayılması ilə bağlı məhdudlaşdırıcı tədbirlər davam edərsə, sizin ailənizin maliyyə durumu ən böyük ehtimalla necə olacaqdır? (MƏCBURİ)

| | Zəhmət olmasa müvafiq xanada √ qoyun | |
|---|---|---|
| | Bəli | Xeyr |
| 1. Əsas xərcləri (ərzaq, gigiyena məhsulları və s.) qarşılamaq çətin ola bilər. | | |
| 2. Kirayə və kommunal ödənişləri ödəmək çətin ola bilər. | | |
| 3. Tibbi xidmətlər/yardımdan istifadəni dayandırmalı ola bilərik. | | |
| 4. Qohumlardan və dostlardan kömək istəməli ola bilərik | | |
| 5. Yerli orqanlardan kömək istəməli ola bilərik | | |
| 6. Kredit götürməli ola bilərik | | |

**Q20. COVİD-19 yayılandan sonra yaşadığınız ölkədə/ərazidə ayrı-seçkiliyin hər hansı bir formada artdığını hiss etmisinizmi? (KÖNÜLLÜ)**
*[Zəhmət olmasa, birini seçin]*
1. Bəli
2. Xeyr
3. Bilmirəm
4. Cavablandırmaqdan imtina edirəm

**Q21. COVİD-19 yayılandan etibarən məişət zorakılığı hallarının artmasını hiss etmisinizmi/eşitmisinizmi? (MƏCBURİ)**
*[Zəhmət olmasa, birini seçin, sonra NÖVBƏTİ düyməsini sıxın]*
1. Bəli
2. Xeyr
3. Bilmirəm
4. Cavablandırmaqdan imtina edirəm

Cavab Bəli-dirsə: 1. (qadınlara qarşı, kişilərə qarşı, uşaqlara qarşı, yaşlılara qarşı, əlilliyi olan şəxslərə qarşı, digər____)

**Q21.1 Məişət zorakılığına məruz qalmış şəxslərin kömək və dəstək üçün müraciət edə biləcəyi mexanizmlər (məsələn, qaynar xətlər, psixoloji yardım və polis) barədə məlumatlısınızmı? (MƏCBURİ)**
*[Zəhmət olmasa, birini seçin]*
1. Bəli
2. Xeyr
3. Bilmirəm
4. Cavablandırmaqdan imtina edirəm

[NÖVBƏTİ SUALLAR YALNIZ QADINLARA VERİLİR]

**Q22. COVİD-19 yayılandan etibarən, aşağıdakı cinsi və reproduktiv sağlamlıq xidmətləri və kontraseptiv vasitələrə çıxış imkanı baxımından şəxsən çətinliklərlə üzləşmisinizmi? (MƏCBURİ)**
*[Zəhmət olmasa, birini seçin, sonra NÖVBƏTİ düyməsini sıxın]*

a) Özüm üçün ginekoloji və mamalıq xidmətlərindən istifadə
   1. Bu xidmətlərə ehtiyacım yoxdur
   2. Bəli, bu xidmətlərə müraciət etdim, lakin hər hansı çətinliklərlə üzləşmədim
   3. Bəli, bu xidmətlərə müraciət etdim, müəyyən çətinliklərlə üzləşdim
   4. Bəli, bu xidmətlərə müraciət etdim, və böyük çətinliklərlə üzləşdim
   5. Cavablandırmaqdan imtina edirəm

b) Kontraseptiv vasitələrdən istifadə
   1. Bu məhsullara ehtiyacım yoxdur
   2. Bəli, bu vasitələri əldə etdim, lakin hər hansı bir çətinliklə üzləşmədim
   3. Bəli, bu vasitələri əldə etmək üçün müəyyən çətinliklərlə üzləşdim
   4. Bəli, bu vasitələri əldə etmək üçün böyük çətinliklərlə üzləşdim
   5. Cavablandırmaqdan imtina edirəm

**SON: TƏŞƏKKÜR EDİRİK! Sorğunun nəticələrini bilmək istəsəniz, zəhmət olmasa bir neçə həftə sonra aşağıdakı səhifəni yoxlayın:**
https://data.unwomen.org/

TOGETHER AGAINST
GENDER STEREOTYPES AND
GENDER-BASED VIOLENCE
#eu4genderequality

AZƏRBAYCANDA COVID-19 PANDEMİYASININ
QADIN VƏ KİŞİLƏRİN HƏYATINA TƏSİRİNİN SÜRƏTLİ
GENDER QİYMƏTLƏNDİRMƏSİ